# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**ZƏNGİLAN: azadlığın 5 illik işığında**




11


SƏS

№ 198 (7366)

29 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik


# Regionların yeni inkişaf dövrü!



2

**Prezident İlham Əliyev: "Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır"**

# İmzaya doğru

## Azərbaycan-Ermənistan sülh prosesinin gerçək konturları



4

**Güclü və qüdrətli Türkiyə!**



8

**Azərbaycanda 4 günlük iş rejimi tətbiq olunur?**



16

**Zəli ilə müalicə: təbiətin canlandırıcı gücü**



13

**Trampla Putin arasındakı pis "zarafat" bitir...**



5

**Telefonomaniya xəstəliyi: xilas yolu varmı?**



5

# Regionların yeni inkişaf dövrü!

## Prezident İlham Əliyev: "Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır"

Müasir Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Tarixi ərazi bütövlüyünü təmin edərək, yeni qlobal reallıqlar fonunda özününinkişaf mərhələsindədir. Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini təmin etməkdədir. Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın hər bölgəsinə səfəri ölkəmizin sosial-iqtisadi inkişafına böyük təkandır. Yeni müəssisələrin açılışı, təməlqoyma mərasimləri, yol infrastrukturunun müasirləşməsi və s. ölkəmizin uğurlu inkişafına söykənən amillərdir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır.









### SƏNAYE MƏHƏLLƏSİNDƏ 100-DƏN ÇOX İŞ YERİ YARADILIB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 28-də Sabirabada səfəri zamanı istehsalat müəssisələrinin fəaliyyəti ilə tanış olub. Belə ki, Prezident Sabirabad Sənaye Məhəlləsində "Humix" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub. Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü ildə imzaladığı Fərmanla müəyyən edilib. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Sabirabad Sənaye Məhəlləsi dövlətimizin başçısının 2017-ci ildə imzaladığı Sərəncamla yaradılıb. Məhəllənin ümumi ərazisi 20,3 hektardır. Məhəllə sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi üçün zəruri infrastrukturla təmin olunub. İndiyədək burada 8 rezident qeydiyyatdan keçib və fəaliyyətə başlayıb. Ümumilikdə sənaye məhəlləsində 100-dən çox iş yeri yaradılıb. Rezidentlər tərəfindən sənaye məhəlləsinə 10 milyon manatdan çox investisiya qoyulub.



Müəssisəyə 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib. Müəssisədə orqanik mineral (toz), kimyəvi (maye və toz) və qranul gübrələr istehsal olunur. Türkiyə, Çin və yerli texnologiya əsasında fəaliyyət göstərən müəssisənin illik istehsal gücü 18 min ton gübrə təşkil edir. Burada istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldilməklə yanaşı, ixrac da ediləcək. Müəssisədə 16 nəfər daimi işlə təmin olunub.

Qeyd edək ki, investisiya məbləği 1,45 milyon manat olan müəssisəyə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 497 min manat güzəştli kredit ayrılıb, investisiya təşviqi sənədi verilib. Azərbaycan Respublikasının Prezidenti Sabirabad Sənaye Məhəlləsində "Azera Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) toxum istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub. "Azera Toxumçuluq" MMC 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb.

### PAMBIQ EMALI ZAVODUNUN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

Prezidentin Sabirabada səfəri rayonun sosial-iqtisadi inkişafında əlamətdar hadisələrlə yadda qalıb. Təbii ki, Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, firavan həyatın təminatına yönəlib. Dövlət başçısının Sabirabada səfəri regionların inkişafına növbəti töhfədir. Bu gün ölkəmizin regionlarında böyük infrastruktur layihələri həyata keçirilir, müasir yollar çəkilir, sosial obyektlər inşa edilir. Bu, onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşların rahat həyat şəraiti və məmnunluğu dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Sabirabad Sənaye Məhəlləsində "Taşobası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olub. 2023-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınan "Taşobası" MMC-nin pambıq emalı zavodunda Türkiyə, Almaniya və İtaliya texnologiyalarının tətbiqi ilə mahlıc və texniki çiyid istehsal olunur. Zavodun layihə dəyəri 3,3 milyon manatdır. Müəssisə ildə 8 min ton mahlıc, 10 min ton texniki çiyid istehsalı gücünə malikdir. İstehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə və ixraca yönəldilir. İndiyədək istehsal edilən məhsulun dəyəri 2,6 milyon manat olan hissəsi satılıb ki, bunun da 2,2 milyon manatı ixracın payına düşür. Zavodda xammal kimi Neftçala, Salyan, Sabirabad və Saatlı rayonlarında yetişdirilən pambıqdan istifadə olunur.

Ardı Səh. 3



# Regionların yeni inkişaf dövrü!

## Prezident İlham Əliyev: "Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır"

Əvvəli Səh. 2

Bu isə öz növbəsində pambıq sahələrində 300 nəfərin mövsümi işlə təmin olunmasına şərait yaradır. Ümumilikdə zavodda 80 nəfərlik iş yeri yaradılıb.

Dövlətimizin başçısı Sabirabad Sənaye Məhəlləsində ”Fırtına Su Sistemləri” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) su filtrlərinin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub. ”Fırtına Su Sistemləri” MMC 2024-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb.

Layihə dəyəri təxminən 1,2 milyon manat olan müəssisədə Çin texnologiyası əsasında mayenin süzülməsi və təmizlənməsi üçün avadanlıqlar istehsal edilir.

### CƏNUBİ QAFQAZDA İLK MÜASİR İSTEHSAL OBYEKTİ

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə ”Promalt” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında da iştirak edib. Müəssisədə pivə istehsalında əsas xammal hesab olunan arpanın xüsusi proseslərdən keçərək mayalanma və fermentasiya üçün hazır vəziyyətə gətirilməsi ilə əldə edilən məhsul - malt istehsal olunacaq. İsveçrənin ”Bühler GmbH” şirkətinin müasir texnologiyası əsasında hazırlanmış avadanlıqla təchiz olunan və emal prosesi tam avtomatlaşdırılan müəssisədə ildə 11 min ton arpa istehsal ediləcək.Müəssisənin investisiya dəyəri 33,2 milyon manatdır.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu, ”Azərşəkər” MMC və ”Azərsun Holdinq” MMC-nin tərəfdaşlığı əsasında həyata keçirilən layihəyə dövlətin investisiya təşviqi mexanizmi çərçivəsində vergi və gömrük güzəştləri ilə dəstək göstərilib. ”Carlsberg Azerbaijan” pivə zavoduna da xammal satışı həyata keçirən müəssisə Cənubi Qafqazda pivəlik arpa səmənisinin emalı üzrə ixtisaslaşmış ilk müasir istehsal obyektidir. Layihə regionda aqrar-sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnoloji modernləşmə, daxili bazarın dayanıqlı xammal təminatı, istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Burada 47 nəfər işlə təmin olunacaq. Regionlarımızda bu və ya digər istehsal müəssisələrinin olması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.









### CƏBRAYIL RAYONUNUN HOROVLU KƏNDİNİN BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib. Xatırladaq ki, Horovlu kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. 2020-ci il oktyabrın 4-də Azərbaycan Ordusu kəndi işğaldan azad edib. Bu kəndin təməlini Prezident İlham Əliyev 2023-cü ilin mayında qoyub. Dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Horovluda fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar. Ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib.

Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi evin, 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib.

Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış ”Əsgər”, ”Şığı”, ”Orta”, ”Gülqasım” və ”Xəlifə” kəhrizləri bərpa edilib. Horovlunun su təminatının bir hissəsi məhz bu kəhrizlər hesabına təmin olunacaq. Qeyd edək ki, burada inşa olunmuş körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada yeməkxana, oyun və musiqi otaqları balacaların ixtiyarına veriləcək. Bundan başqa, binada inzibati, kompüter və metodika otaqları yaradılıb. Bağçanın ərazisində uşaqların asudə vaxtlarını maraqlı keçirmələri üçün də şərait yaradılıb.

Horovluda müasir tam orta məktəb binası da tikilib. Məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün geniş imkanlar mövcuddur. Təhsil ocağının sinif otaqları lazımi dərs vəsaiti və avadanlıqla təchiz olunub. Burada 26 sinif otağı, kimya, fizika, biologiya və informatika, musiqi, rəsm, hərbi hazırlıq otaqları, 4 laboratoriya, kitabxana şagirdlərin ixtiyarına veriləcək. Binada 180 yerlik akt zalı, qapalı idman zalı və yeməkxana da yaradılıb. Məktəbin ərazisində açıq idman meydançası da mövcuddur.

Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Burada uşaqlar üçün oyun zonası, idman sahəsi, basketbol meydançası, masaüstü oyunlar üçün zona, söhbətgahlar yaradılıb. Eyni zamanda, Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib. ”Əsgər” kəhrizinin su anbarı əsaslı təmir edilib, dekorativ landşaft yaradılıb. Həmçinin parkın ərazisində işğal zamanı dağıdılmış 4 bina tarixi yaddaşın qorunması, həmin dövrün izlərini və reallıqlarını gələcək nəsillərə çatdırmaq üçün əyani sübut kimi saxlanılıb.

Bundan başqa, kənddə ikimərtəbəli inzibati bina inşa edilib. Binada operativ idarəetmənin və qərarların səmərəli qəbulunun təmin edilməsi məqsədilə müasir situasiya mərkəzi yaradılıb. Mərkəzdə kəndin idarəetməsində Coğrafi İnformasiya Sisteminin (CİS) tətbiqi də nəzərdə tutulur. Kəndin Baş planının CİS platformasına inteqrasiya edilməsi yaşayış məntəqəsinin səmərəli planlaşdırılmasına və idarə edilməsinə imkan verəcək. Bütün torpaq sahələri, tikililər, yollar, su, enerji, qaz, rabitə xətləri bu platformada koordinatlarla yerləşdirilib. Cəbrayıl rayonunun Horovlu kəndində yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısı kəndə köçən sakinlərlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

### ŞƏHƏR MƏSCİDİNİN TƏMƏLİ QOYULUB

Bu gün Cəbrayıl rayonu inkişafının yeni mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfər çərçivəsində Cəbrayıl şəhər məscidinin təməlini qoyub. Məscidin ümumi sahəsi 1530 kvadratmetrdən çox olacaq. Burada eyni vaxtda 615 nəfər ibadət edə biləcək. İkimərtəbəli məscid binasında eyni anda kişilərin və qadınların ibadət etmələri üçün şərait olacaq. Məsciddə icma zalı, avtomobil dayanacağı, söhbətgah yaradılacaq. Məscidin minarələrinin hündürlüyü 34,2 metr, günbəzin hündürlüyü isə 22,6 metr olacaq.

Qeyd edək ki, işğaldan əvvəl Cəbrayıl rayonunda 5 məscid, 40-dan çox ziyarətgah, 20-dən artıq tarixi-memarlıq abidəsi olub. İşğal dövründə digər ərazilərimizdə olduğu kimi, bu rayondakı tarixi-dini abidələrimiz ermənilər tərəfindən məhv edilib. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağın və Şərqi-Zəngəzurun tarixi-dini və mədəni abidələrinin bərpası, yenilərinin inşası istiqamətində Azərbaycan dövləti tərəfindən mühüm işlər görülüb. Bu xüsusda 2017-ci ildə Cocuq Mərcanlı kəndində inşa edilən, Şuşa məscidinin bənzəri olan məscidi qeyd etmək olar.

### MÜASİR STANDARTLARA UYĞUN YAŞAYIŞ KOMPLEKSLƏRİ

Görülən işlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoyub. İkinci yaşayış kompleksi 5,28 hektar ərazidə salınacaq. Layihə çərçivəsində 5 və 6 mərtəbəli 23 bina inşa ediləcək. Binalarda bir, iki, üç, dörd və beş otaqdan ibarət ümumilikdə 615 mənzil olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün bütün zəruri şərait yaradılacaq.

Dövlətimizin başçısı daha sonra şəhərdə inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlini qoyub. Bu kompleksin də ümumi sahəsi 5 hektardan artıqdır. Burada 5, 6 və 7 mərtəbəli 25 binanın tikintisi planlaşdırılır. Layihəyə əsasən binalarda bir, iki, üç, dörd və beşotaqlı olmaqla 746 mənzilin inşası nəzərdə tutulur. Göründüyü kimi, Prezident İlham Əliyev respublikamızın bütün regionlarının hərtərəfli tərəqqisini xüsusi diqqət mərkəzində saxlayır və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirir, qarşıya qoyduğu vəzifələrin icrasına şəxsən nəzarət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi inkişaf modeli ölkəmizin dayanıqlı iqtisadi yüksəlişini təmin etməkdədir. Dövlət başçımızın çıxışlarının birində bildirdiyi kimi, ”Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır”

***Zümrüd BAYRAMOVA***

# İmzaya doğru

## Azərbaycan-Ermənistan sülh prosesinin gerçək konturları

***Azərbaycan-Ermənistan münasibətləri geniş sülh müqaviləsinin imzalanmadığı, lakin sülhə doğru inadla irəliləyən tərəflərin istəklərindən asılı olan mərhələdədir. Rəsmi Bakının mövqeyi dəyişməzdir, amma bunu İrəvan barədə demək bir az çətindir. Çünki, Ermənistanda ictimai-siyasi vəziyyət stabil deyil, Rusiyanın dəstəklədiyi müxalifət və kilsə sülhə qarşıdır. Onlar sülhü ermənilər üçün qəbuledilməz hesab edirlər. Alternativ mövqe isə danışıqlardan, boş müzakirələrdən o tərəfə gedə bilmir. Nə yeni müharibə başlamaq üçün siyasi iradə və hərbi güc var, nə də yeni eskalasiyanı dəstəkləmək həvəsində olan dövlət.***

Azərbaycanın isə sülh gündəliyi çərçivəsində formalaşdırdığı əsas mövqelər, prioritetlər, həyata keçirilmiş və hələlik tamamlanmamış addımlar barədə məlumatlar açıqdır. Bu yanaşmanın nəyi hədəflədiyini, hansı şərtlərlə işlədiyini və hansı çətinliklərlə üzləşdiyini də hər kəs bilir. Rəsmi Bakı sülh danışıqlarına sadiqdir, səmimidir və etibarlıdır. Azərbaycanın Ermənistanla münasibətlərdə sülh və normallaşma istiqamətində irəli sürdüyü əsas prinsiplər və tələblərdən birincisi sərhədlərin toxunulmazlığı, suverenlik və ərazi bütövlüyüdür. Azərbaycan vurğulayır ki, münasibətlər "sülh müqaviləsi" çərçivəsində olmalıdır və Ermənistan həmin prinsiplərə hörmət etməlidir. Yəni Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində tanınmış suverenliyi və ərazi bütövlüyü qorunmalıdır.

Azərbaycan XİN-in yaydığı bəyanatda deyildiyi kimi, sülh müqaviləsi vacibdir, lakin Ermənistanın konstitusiyasında Azərbaycanın qarşısında "ərazi iddiaları"nın mövcud olması narahatlıq doğurur. Ölkəmiz gündəlikdə sülh müqaviləsinin imzalanmasını vacib məsələ kimi qoyub. Bu müqavilə münasibətlərin rəsmi hüquqi bazasını təşkil etməlidir. 2024-cü ilin sonunda Xarici İşlər Nazirliyi bəyan etmişdi ki, normallaşma gündəliyində "tərəfdaşlıq münasibətlərinin qurulması", "sülh müqaviləsinin təşviqi" əsas istiqamətlərdən biridir.

Sülhün davamlılığı üçün sadəcə müqavilə yox, sərhədlərin fiziki şəkildə müəyyən edilməsi - delimitasiya-demarkasiya prosesləri Azərbaycan üçün prioritetdir. Azərbaycan sülh gündəliyində nəqliyyat və kommunikasiya əlaqələrinin açılmasını da mühüm vasitə kimi görür. Regionun inteqrasiyası, tranzit yolların qurulması vasitəsilə iqtisadi faydalar əldə etmək planlaşdırılır. Bu sahədə konkret addımlar kimi "infrastrukturun bərpası", "rəqəmsal-logistika koridorları", "transit imkanlarının genişləndirilməsi" kimi hədəflər göstərilir.

Azərbaycan normallaşma prosesini kağız üzərində yox, real addımlarla görmək istəyir. Məsələn, nəqliyyat marşrutlarının açılması, yük tranzitinin təşviqi, sərhəd rejiminin sadələşdirilməsi kimi. Məsələn, Prezident İlham Əliyev 2025-ci ilin sentyabrında BMT Ümumi Assambleyasında qeyd etmişdir ki, "Biz Birləşmiş Ştatlarla yeni strateji tərəfdaşlıq çərçivəsində Ermənistanla barışma yolundayıq". Prezidentin Qazaxıstana səfərində Ermənistana tranzit yüklərin daşınmasına tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması barədə qərarı Ermənistanla sülh istiqamətində atılan ən böyük addım hesab edilməlidir. Bəli, məhz Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başlanan ikitərəfli, heç bir vasitəçinin olmadığı təmaslar, danışıqlar öz bəhrəsini verməkdədir.

### Sülh gündəliyinin hazırkı statusu

2024-cü ildə Azərbaycan "normallaşma gündəliyi" ilə bağlı əhəmiyyətli irəliləyişin olduğu bəyan etdi. Həmin ilin martında Azərbaycan və Ermənistan "sülh müqaviləsinin prinsipləri" barəsində razılaşma əldə edildi. Cari ilin iyul ayında Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev, "müharibə eskalasiyası və ya silahlı qarşıdurma gündəliyimizdə deyildir", deyə açıqlama verdi. Lakin eyni zamanda Ermənistan tərəfdən bildirildi ki, Azərbaycan əlavə şərtlər irəli sürür, Ermənistan konstitusiyasında dəyişikliklər tələb edir. Bəli, Azərbaycanın gündəliyində xüsusi olaraq aşağıdakı tələblər yer alır: Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması, "üçüncü tərəf" silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədlərində olmaması (yəni, sərhəd təhlükəsizliyi baxımından vasitəçi və ya hərbi güc yükünün minimuma endirilməsi). Bu, əslində qarşı tərəfə təhlükəsizlik zəmanətidir. Sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-logistika marşrutlarının açılması əlaqəli proseslərdir. Bunun üçün praktiki addımlar atılmalıdır. Ermənistan tərəfi isə sadəcə, deklarasiyalar yox, icrasına yönəlik mexanizmləri işə salmalı, kommunikasiyaların açılmasını, tranzit səviyyəsinin artırılmasını təmin etməlidir.



Azərbaycan 2024-cü ilin sonunda bəyan etmişdir ki, "tarixi fürsət yaranıb" və normallaşma prosesində ciddi addımlar atılıb. 2025-ci ilin sentyabrında Prezident İlham Əliyev BMT-də həmin gündəliyi bir daha vurğulamışdı. Azərbaycan həm də sivil infrastrukturun bərpası və yeni regionların reinteqrasiyası üzrə planlar hazırlayıb, işğaldan azad edilmiş ərazilərin bərpası proqramını artıq reallaşdırmaqdadır.

Yuxarıdakı planlar olmasına baxmayaraq, gündəliyin icrasında bir sıra çətinliklər də mövcuddur. Ermənistan tərəfdən Azərbaycanın şərtlərinin çox olduğu, bəzi şərtlərin qəbul edilməsində gecikmələrin olduğu barədə iradlar, iddialar - məsələn, "Azərbaycan sülh prosesini ləngidir" kimi filirlər səsləndirir. Sülh müqaviləsinin imzalanması üçün qarşılıqlı etimadın formalaşması, monitorinq mexanizmlərinin qurulması vacibdir. Lakin bu, hələ tam reallaşmayıb.

Nəqliyyat-kommunikasiya marşrutlarının açılması səyləri var, amma praktiki olaraq bütün bağlantılar hələ tam aktiv deyil. Hər iki tərəfdə sülhə gedən yolun sosial və siyasi tərəfdən qəbul olunması vacibdir, bu da asan deyil. Bunun üçün siyasi və ictimai dəstək lazımdır. O cümlədən, geosiyasi faktorları, regionda Rusiya, İran, Türkiyə və Qərbin kəsişən maraqlarını da unutmaq lazım deyil. Cənubi Qafqazın gündəliyi bu mühitdə formalaşır və xarici aktorların təsiri danılmazdır.

### Sülh perspektivləri

Bu gün üçün Ermənistanla Azərbayan arasında münasibətlər bir neçə vacib komponentlər üzrə irəliyə doğru gedir. Ermənistan hökuməti "Şərq-Qərb" və ya "Şimal-Cənub" istiqamətlərində ölkələrarası, regionlararası nəqliyyat və tranzit marşrutlarının açılmasını dəstəklədiyini bəyan edib. Lakin Azərbaycan tərəfi Ermənistanın "uzun və mürəkkəb" marşrutlar təklif etdiyini, sadə və birbaşa yolun seçilmədiyini deyir.

### Bu arada...

Ermənistanın XİN başçısı Ararat Mirzoyan Zəngəzur dəhlizinin (TRIPP marşrutu) genişləndirilməsi və marşrut boyunca çəkiləcək dəmir yolunun idarəçiliyinin Rusiyaya verilməsi imkanlarını şərh edib. "Əgər o, heç olmasa Gümrüyə qədər uzanmasa, TRIPP marşrutu öz təyinatını itirər. Əgər dəmir yolu Ermənistan ərazisindən Naxçıvana keçirsə və daha sonra Naxçıvandan keçmirsə və Arazdəyəndən (Yeraşx) Ermənistana daxil olmazsa, bu, mənasızdır", - nazir bildirib.

Azərbaycan tərəfinin Naxçıvana marşrutu qəbul edərək Ermənistana başqa kommunikasiyalar təqdim etməyəcəyi ilə bağlı bəyanatları şərh edən Mirzoyan bildirib ki, layihə qarşılıqlı faydaya əsaslanır və bu, onun həyata keçirilməsinə zəmanət verir. O, həmçinin TRIPP marşrutu ilə tikiləcək dəmir yolunun idarəçiliyinin Cənubi Qafqaz Dəmir Yoluna (CQDY) verilməsi ehtimalına münasibət bildirib. Mirzoyan qeyd edib ki, mövcud və fəaliyyət göstərən dəmir yolu infrastrukturu Rusiya FTX-nin konsessiya idarəçiliyinə verilib, yeni dəmir yolu isə hələ mövcud deyil. "Ona görə də illər əvvəl bağlanmış konsessiya müqaviləsi ilə mövcud olmayan bir şey necə verilə bilər?", Mirzoyan soruşub və əlavə edib ki, Ermənistan artıq bu məsələ ilə bağlı öz mövqeyini Rusiya tərəfinə çatdırıb.

Qeyd edək ki, avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan liderləri ABŞ-ın vasitəçiliyi ilə TRIPP nəqliyyat marşrutunun yaradılması haqqında bəyannamə imzalayıblar. Sənədə əsasən, marşrut Azərbaycanı Ermənistanın cənubundan keçməklə Naxçıvanla birləşdirəcək və Amerika konsorsiumu tərəfindən idarə olunacaq.

"Beynəlxalq ictimaiyyətin prioriteti faktiki sülh sazişinin imzalanması prosesi deyil, davamlı sülhə faktiki nail olmaqdır". Bunu Mirzoyan parlamentin daimi komitələrinin birgə iclasında 2026-cı il dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı parlament üzvlərinin suallarını cavablandırarkən deyib. O, bu qənaətə avqustun 8-də Vaşinqtonda müvafiq sənədlərin imzalanmasından sonra xarici həmkarları ilə müzakirələrdən sonra gəlib. Nazir vurğulayıb ki, Azərbaycan tərəfinin sülh sazişinin bağlanması üçün irəli sürdüyü şərt Ermənistan üçün qəbuledilməz olaraq qalır. "Mən hamıya məlum olan bu nüansı istəmirəm və inkar edə də bilmərəm. Təklif olunan formada bu, bizim üçün qəbuledilməzdir. Üstəlik, həm sülhün, həm də mehriban qonşuluq münasibətlərinin institusionallaşması kontekstində. Bizim öz yanaşmalarımız var, indiki məqamda bu nüansı ətraflı açıqlamaq istəməzdim. Amma sənədin imzalanmaması, paraflanması onun əhəmiyyətini azaltmır", - Mirzoyan qeyd edib.

Ermənistan "Tramp marşrutu" adlanan marşrutun həyata keçirilməsi üçün zəruri olan şirkətin yaradılması ilə bağlı texniki detalları dəqiqləşdirmək üçün Amerika tərəfi ilə sıx əlaqə saxlamağa davam edir. XİN başçısının sözlərinə görə, bu təmaslar avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüşdən dərhal sonra başlayıb. "Bu texniki həllər nə olursa olsun, hər şey əvvəllər razılaşdırılmış və imzalanmış prinsiplərə uyğun olacaq", - Mirzoyan bildirib.

Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olmasının dönüş nöqtəsi olduğunu deyən Mirzoyan Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanmasını xüsusi olaraq qeyd edib: "Avqustun 8-də baş verənləri əminliklə, ondan əvvəl görülən işləri və ya bu istiqamətdə aparılan danışıqları azaltmadan dönüş nöqtəsi adlandıra bilərəm. Bütün bunlar son nəticədə avqustun 8-nə gətirib çıxardı və həmin gün Vaşinqtonda baş verənlər dönüş nöqtəsi və gələcək işimiz üçün təməl daşı oldu".

Türkiyə və Azərbaycan prezidentlərinin Ermənistana dəvət edilməsinin üçtərəfli normallaşma prosesindən qaynaqlandığını deyə bilərik. Son vaxtlar Türkiyə Ermənistanla əlaqələrin normallaşmasında maraqlı tərəf kimi çıxış edir. Sülh və nəqliyyat-kommunikasiyaların açılması regionda uzun müddətdir dayanan gərginliyi azalda bilər. İqtisadi, sosial əlaqələrin bərpası sülhün davamlılığına töhfə verə bilər. Erməni tərəfin "yolun açılması" təkliflərini birdə-birə səsləndirməsi region daxilində ticarət və tranzitin artması üçün imkan yaradır. Açılan marşrutlar, nəqliyyat, tranzit, logistik şəbəkələr həm Ermənistan, həm Azərbaycan, həm də Türkiyə və o cümlədən, potensial olaraq regionun digər ölkələri üçün əlavə gəlir və əməkdaşlıq imkanları yarada bilər. Bu, yeni bizneslər, investisiyalar, infrastruktur işləri üçün baza ola bilər. Sülh müqaviləsinin imzalanması (və ya onun yaxınlaşması) Ermənistan və Azərbaycan üçün beynəlxalq aləmdə imic baxımından vacibdir. Qlobal və regional aktorlarla, Avropa qurumları, Rusiya, Türkiyə, ABŞ-la yeni əməkdaşlıq formatları açıla bilər. Əgər nəqliyyat dəhlizləri, məsələn, Azərbaycanın Naxçıvanla əlaqəsi, Ermənistanın digər regionlarına çıxış açılarsa, bu "şəbəkə effekti" yarada bilər. Yəni bir yol açıldıqca digər yolların açılması da motivasiya edər.

***V.VƏLİYEV***

# Elektrikli avtomobillərin qiyməti artacaq?

## EKSPERT AÇIQLADI

**"Son illərdə dünyada ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin, xüsusilə də elektriklə işləyən avtomobillərin geniş yayılması müşahidə olunur. Bu tendensiya Azərbaycanın avtomobil bazarına da təsirsiz ötüşməyib". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib.**





Onun sözlərinə görə, "ekoloji il" çərçivəsində ölkədə bir sıra təşviqedici tədbirlər həyata keçirilib: "Elektrik avtomobillərinin alışı və satışı ilə bağlı müxtəlif kampaniyalar təşkil olunub, bu sahədə ixtisaslaşmış satış mərkəzləri və servis xidmətləri yaradılıb. Bununla yanaşı, texniki xidmət infrastrukturu - yeni servis mərkəzlərinin, şarj stansiyalarının və ehtiyat hissələri bazasının inkişaf etdirilməsi istiqamətində də mühüm addımlar atılıb. Mediada və sosial platformalarda aparılan reklam və maarifləndirmə kampaniyaları nəticəsində elektrik avtomobilləri geniş ictimaiyyət arasında daha çox tanınmağa başlayıb. Bu isə öz növbəsində bazarda tələbin artmasına, qiymətlərin nisbətən sabitləşməsinə və rəqabət mühitinin formalaşmasına səbəb olub.

Azərbaycanın idxal etdiyi elektrik avtomobillərinin əsas hissəsi Çin, Yaponiya və Cənubi Koreya istehsalçılarının məhsullarıdır. Bu ölkələr arasında xüsusilə Çin istehsalçıları daha münasib qiymət və müxtəlif model seçimi ilə fərqlənirlər. Çin şirkətləri təkcə ucuzluq deyil, həm də batareya texnologiyası və enerji səmərəliliyi baxımından ciddi irəliləyişlər əldə ediblər. Bu da Azərbaycan alıcısı üçün real və əlçatan bir alternativ yaradıb. Ölkə bazarında Çin istehsalı olan elektrik avtomobillərinin payı sürətlə artıb və bu avtomobillər artıq bir çox istehlakçı üçün həm iqtisadi, həm də ekoloji cəhətdən sərfəli seçimə çevrilib. Bu inkişaf eyni zamanda ölkədə yeni iş yerlərinin açılmasına, servis və texniki xidmət sektorunun genişlənməsinə, eləcə də enerji səmərəliliyinə yönəlmiş siyasətin möhkəmlənməsinə təkan verir".

***Arzu Qurbanlı***

# Trampla Putin arasındakı pis "zarafat" bitir...

## Mətləb Salahov: "Ağ Ev rəhbəri dünya qarşısında ciddiliyini sübut etmək üçün Rusiya iqtisadiyyatına ölümcül sanksiya zərbəsi hazırlayır"

"Son beş-altı ay ərzində Vladimir Putin Donald Trampın onunla razılaşacaq sadəlövh, amma qazanc naminə bir çox məsələyə göz yuman ABŞ prezidenti olduğunu düşünürdüsə, artıq bu məsələdə də vəziyyət dəyişib. İndi Kreml rəhbəri ABŞ-dakı həmkarına münasibətdə artıq heç bir "dostluğa", mövqe birliyinə bel bağlaya bilməz. Çünki artıq D.Tramp da V.Putinin sadəlövhcəsinə aldatdığı prezident obrazından çıxmağa başlayıb. Daha Avropadakılar onu KQB generalının əlində oyuncaq olan milyarder prezident də adlandıra bilməz. Ona görə ki, prezidentliyinin ilk günündən üzü bəri V.Putin tərəfindən aldadılan D.Tramp bütün dünyaya özünün ciddiliyini və supergüc olduğunu sübut etmək üçün Rusiyanı dizə gətirəcək addımlara hazırlaşır. Artıq hədəf Rusiya iqtisadiyyatının çökdürülməsidir.



Dünya siyasətində fırtına kimi əsən ABŞ prezidentinin Rusiya məsələsində yumşaqlıq göstərib özünü hörmətdən salması artıq ən yaxın ətrafı tərəfindən də qəbuledilməz sayılır".

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, hazırkı ana qədər dünyadakı əksər münaqişələri bitirdiyini idda edən ABŞ prezidentinin Ukrayna müharibəsini bitirə bilməməsi və ən pisi isə V.Putin tərəfindən dəfələrlə aldadılması D.Tramp üçün "qırmızı cizgidir".

"Budapeştdə V.Putinlə görüşü təxirə salan D.Tramp Avropadakı müttəfiqlərinin də təkidi ilə Rusiya əleyhinə ölümcül sanksiya paketi hazırlayır. Bu qərar həm də D.Trampla V.Putin arasındakı "pis zarafatın" bitdiyi anlamına gəlir.

Artıq zarafat vaxtı keçib. İndiyə qədərki yüngül sanksiyalarla V.Putinin istehzalı atmacalarından başqa heç nə qazanmayan rəsmi Vaşinqton, bu dəfə Rusiya rəhbəri ilə bağlı bütün "pis zarafatları" kökündən alt-üst edəcək tədbirlər görməkdə qərarlıdır. İlk növbədə Moskvanı enerji mühasirəsinə salmaq, iri alıcı dövlətləri Rusiya enerjisindən çəkindirmək, habelə Moskvanı bu vaxta qədər Qərbə qarşı sahib olduğu mühüm rıçaqlardan məhrum etmək əsas hədəfdir. Düzdür, cavabında V.Putin də ABŞ və qoca qitəni hədələyən fikirlər səsləndirib - əlbəttə, hərbi cavab zərbəsini nəzərdə tutaraq. Lakin D.Trampın ölümcül iqtisadi sanksiyaları daha real görünür, nəinki V.Putinin hərbi hədələri".

***Ayşən Vəli***



Elçin Bayramlı

# Telefonomaniya xəstəliyi: xilas yolu varmı?

***İfrat elektronika asılılığının sağlamlığa ciddi zərərləri olduğu elm tərəfindən təsdiq olunub. Belə bir deyim var- texnologiya bizi istifadə etməsin, biz texnologiyanı istifadə edək! Bu deyim ən çox da mobil telefon, daha doğrusu smartfon sektoruna aiddir. Adi müşahidələr zamanı əksər insanların, xüsusilə də, gənclərin bahalı texnoloji məhsulları başqalarına nümayiş etdirmək, onunla öyünmək üçün aldıqları görünür.***

"Qonşudan qalma geri" misalı yenicə bazara çıxan bahalı bir cib telefonunu, ailəsinin ya da özünün iqtisadi imkanlarını "zorlayaraq" satın alan, uzun aylar kredit borcu ödəməyə məcbur qalanları hamımız tanıyırıq.

Bu telefonun funksiyalarının çoxundan istifadə edə də bilmir. Lakin, yeri gəldi-gəlmədi onu çıxarıb nümayiş etdirmək, maqnitofon, ya da fotoaparat əvəzi istifadə etmək ona adi gəlir.

Tez-tez modelləri dəyişən smartfonları ehtiyac oldu olmadı almaq konkret psixi problem və bir növ narkomaniyadır. Bəzən insanlarımız 1-ci 2-ci 3-cü 5-ci dərəcəli problemlərini kənara qoyub bütün pullarını 10-cu dərəcəli olan yeni smartfon almağa xərcləyir, çoxu kreditə girir və sonradan problem yaşayır. Smartfon və proqram təminatı istehsalçıları elə bir sistem qurmağa çalışırlar ki, insanlar bütün günü internetdən ayrıla bilməsinlər. Müşahidələr göstərir ki, çox az adam smartfondan faydalı işlər üçün istifadə edir. Habuki, internet dünyasında faydalı resursların sayı hesabı yoxdur.

Məsələnin tibbi və sağlamlıq tərəfi də var. Mobil telefonların hormonal balanssızlıqlara və xərçəngə səbəb olduğunu göstərən onlarla elmi araşdırma var. Lakin iri telefon şirkətlərinin təzyiqi və təsiri ilə bir çox elmi institutlar, hətta Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri belə bunu etiraf etməkdən çəkinirlər.

İsveç, Rusiya və Kanada alimlərinin müxtəlif vaxtlarda apardığı araşdırmalar mobil telefonla 2 dəqiqəlik danışığın belə "azheymer", "parkinson", beyin xərçəngi və "multiskleroz" kimi sinir xəstəliklər yarada bildiyini, genetik dəyişikliyə, yuxusuzluğa, cinsi zəifliyə, sonsuzluğa səbəb olduğunu ortaya çıxardı.

Əlbəttə, bütün bu təhlükələrə baxmayaraq, smartfonlardan imtina etmək mümkün deyil, amma bəzi qaydalara əməl etməklə zərəri azaltmaq olar. Məsələn, danışıq zamanı aparatı başınızdan mümkün qədər uzaqda olmasına çalışmaq lazımdır. Mümkün qədər qısa danışmaq, telefonu arada sağ və sol tərəfə keçirmək lazımdır. Gecə yataq otağında telefon mütləq söndürülmüş olmalıdır. Dalğa zəif olanda və nəqliyyatla hərəkətdə olarkən telefondan istifadə etməmək lazmdır, çünki bu halda radiasiya min dəfə artır. Qanın tərkibində aparılan müayinələrdən bəlli olur ki, maqnit dalğalar erositlərin çökməsinə səbəb olur.

Problemin daha bir tərəfi isə mənəvi məsələlərdir. Azad internet açıq şəkildə psixtron terror, mənəvi deqradasiya platformasıdır. Bura cəmiyyət üçün təhlükə yaradan saxta məlumatlardan tutmuş, hər cür zorakılıq, intihar, zorlama, qətl və sair dəhşətli materiallarla doludur.

Xüsusilə də, uşaqlar mobil telefondan aralı tutulmalıdır. İnternet oyunlarının, bir çox videoların uşaqlarda çox ciddi mənəvi-psixoloji travma yaratdığı faktdır. Son dövr uşaqlarının həddən artıq əsəbi, aqressiv, söz dinləməyən və hegemon xarakterdə olmasında internetin əvəzedilməz xidmətləri vardır.

Bu səbəbdən, uşaqlara- ən azı 16 yaşadək- smartfon verilməməlidir. Yalnız sadə telefon vermək olar. Uşaqlar internetdən valideynlərin telefonu və ya komputer vasitəsilə valideynin nəzarəti altında yalnız bilik almaq üçün istifadə etməlidir.

İnternet bıçaq kimidir, onun vasitəsilə minlərlə peşəni, işi, xarici dili öyrənmək də mümkündür, vaxtı mənasız əyləncələrə, zərərli materiallara sərf etmək də. Ağıllı adamlar faydalı tərəflərindən bəhrələnməyə çalışır. Ən son texnologiyalı cihazın sizdə olması vacib deyil. Əvvəlcə baxmalısınız- sizin bahalı smartfona nə dərəcədə ehtiyacınız var- əgər eyni işləri dəfələrlə ucuz cihazda da etmək mümkündürsə. Obrazlı desək, "saqqalınız yoxdursa, saqqal darağına pul verməyə dəyməz".

# "Görünməz təhlükə: suyun çirklənməsi və insan sağlamlığı"

***Su - həyatın əsas mənbəyidir. İnsan orqanizminin təxminən 60-70%-i sudan ibarətdir, və bu nisbət yaş, cins, iqlim və fəaliyyət növündən asılı olaraq dəyişir. Lakin XXI əsrdə suyun dəyəri təkcə onun bolluğunda deyil, keyfiyyətində ölçülür.***

BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"ndə (SDG 6) qeyd olunur ki, təmiz suya çıxış hər bir insanın fundamental hüququdur. Amma hazırda dünyada 2,2 milyard insan təhlükəsiz içməli suya malik deyil. Çirklənmiş su nəticəsində hər il təxminən 500 min insan (əsasən uşaqlar) mədə-bağırsaq xəstəliklərindən həyatını itirir. Azərbaycanda da su ehtiyatlarının məhdudluğu, sənaye və kənd təsərrüfatı fəaliyyəti nəticəsində yaranan çirklənmə problemləri bu mövzunu aktual və strateji əhəmiyyətli edir.



## Suyun kimyəvi və bioloji tərkibi

İçməli suyun tərkibi təkcə H?O molekullarından ibarət deyil. Orada minerallar (kalsium, maqnezium, natrium, kalium), iz elementlər (dəmir, sink, mis), eləcə də təbii orqanik maddələr və mikroorqanizmlər mövcuddur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) içməli su üçün aşağıdakı parametrləri müəyyən edib:



Kimyəvi maddələr: nitrat, nitrit, arsen, qurğuşun, civə və pestisidlər minimal səviyyədə olmalıdır. Bioloji təhlükəsizlik: koliform bakteriyalar, E. coli və virusların sıfıra yaxın olması tələb olunur. Fiziki göstəricilər: rəng, iy, bulanıqlıq və dad normal sərhədlərdə olmalıdır. Bu parametrlərdən sapma insan sağlamlığına ciddi təsir göstərir. Məsələn: Arsen tərkibli su xərçəng riskini artırır. Nitrat və nitritlər uşaqlarda "mavi uşaq sindromu"na səbəb olur. Qurğuşun sinir sistemini zədələyir və inkişaf geriliyi yaradır.



## Dünya təcrübəsi və iqlim dəyişikliklərinin təsiri

İqlim dəyişikliyi su resurslarına birbaşa təsir edir. Dünyanın bir çox regionlarında quraqlıq, buzlaqların əriməsi və yeraltı suların azalması müşahidə olunur. Afrikada, Asiyada və Latın Amerikasında təmiz suya çıxış bir çox ölkələrdə əhalinin yalnız 50-60%-i üçün mümkündür. Məsələn: Hindistanda Yamuna və Qanq kimi çaylar sənaye tullantıları ilə çirklənib. ABŞ-da Flint şəhərində (Miçiqan) su borularından sızan qurğuşun 100 mindən çox insanı zəhərləmişdi. Avropada isə su təmizləmə texnologiyaları və qanunvericilik sayəsində içməli suyun keyfiyyəti ən yüksək səviyyədə saxlanılır. Bu təcrübə göstərir ki, su təhlükəsizliyi yalnız ekoloji deyil, həm də siyasi və sosial məsələdir.



## Azərbaycanda su ehtiyatları və keyfiyyət problemləri



Azərbaycanın su ehtiyatları təxminən 30 milyard kubmetr təşkil edir və bunun 70%-i qonşu ölkələrdən (xüsusilə Gürcüstan, Ermənistan, İran, Türkiyə) gələn transsərhəd çayların payına düşür. Bu, ölkəni ekoloji və hidroloji baxımdan asılı vəziyyətə salır. Əsas su mənbələri:

*Kür və Araz çayları*
*Mingəçevir su anbarı*
*Samur-Abşeron kanalı*
*Yeraltı artezian suları*

## Məhsuldar regionlarda çirklənmə mənbələri:

1. Sənaye tullantıları (Sumqayıt, Gəncə, Mingəçevir bölgələrində)
2. Kənd təsərrüfatı pestisidləri və gübrələri
3. Kanalizasiya sularının təmizlənmədən çaylara axıdılması

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2024-cü il hesabatına görə, Kür çayında bəzi yerlərdə ammonium və fosfat səviyyələri ÜST normativini 2-3 dəfə keçib. Xəzər dənizinə axan suların tərkibində neft məhsulları və ağır metalların miqdarı da təhlükə həddindədir.

## Su təmizləmə texnologiyaları və innovasiyalar

Dünya üzrə suyun keyfiyyətini qorumaq üçün müxtəlif texnologiyalar tətbiq olunur:

Membran filtrasiya (reverse osmosis) - duz və mikroorqanizmləri təmizləyir.

Aktiv kömür filtrasiyası - üzvi maddələri və qoxunu aradan qaldırır.

UV sterilizasiya - bakteriyaları məhv edir.

Nanotexnologiyalar - nanozərrəciklər vasitəsilə toksinləri neytrallaşdırır.

Azərbaycanda "Azərsu" ASC və digər qurumlar tərəfindən yeni su təmizləyici qurğular (məsələn, Oğuz-Qəbələ-Bakı layihəsi) istifadəyə verilib. Bu layihələr Bakı və Abşeron yarımadasına daha təmiz su gətirmək məqsədi daşıyır.

## İnsan sağlamlığına təsirlər

Tədqiqatlar göstərir ki, suyun keyfiyyəti ilə aşağıdakı xəstəliklər arasında birbaşa əlaqə mövcuddur:

Mədə-bağırsaq infeksiyaları, qaraciyər və böyrək xəstəlikləri, onkoloji xəstəliklər (arsen və nitrat səbəbli), uşaqlarda diş və sümük inkişafı pozğunluqları. WHO və UNICEF-in birgə hesabatına görə, içməli suyun mikrobioloji təmizliyi hər il dünya üzrə 1,4 milyon ölümün qarşısını ala bilər.

## Dünya nəzəriyyəsinə istinad: "Ekosistem Nisbiliyi"

Ekologiya elmi baxımından Yer üzərindəki bütün canlılar və resurslar qarşılıqlı tarazlıqda mövcuddur. Bu anlayış Eynşteynin "nisbilik nəzəriyyəsi"ndəki kimi "enerji bərabərliyi" prinsipi ilə səsləşir: "Heç nə təcrid olunmuş şəkildə dəyişmir; bir sahədəki pozuntu bütün sistemi təsirə salır". Suyun çirklənməsi yalnız lokal problem deyil, qlobal enerji və həyat axınının pozulmasıdır.



## Azərbaycanda gələcək istiqamətlər və həll yolları

1. Su keyfiyyətinin mütəmadi monitorinqi - bütün rayonlarda laborator nəzarət şəbəkəsinin gücləndirilməsi.
2. Sənaye və kənd təsərrüfatı tullantılarının nəzarəti - cərimə mexanizmlərinin sərtləşdirilməsi.
3. Su təmizləmə texnologiyalarına sərmayə - nanotexnologiya və UV sistemlərinin yayılması.
4. Maarifləndirmə proqramları - əhalinin su saflığı barədə məlumatlandırılması.
5. Regional əməkdaşlıq - Gürcüstan, Türkiyə və İranla transsərhəd çayların idarəedilməsi üzrə birgə layihələr.

***Günel Fərzəliyeva***

ARAŞDIRMA

# Prezident İlham Əliyev: "Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək pillədə qərarlaşması böyük fəxr hissi doğurur"

***Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə həmkarı Rəcəb Tayyib Ərdoğanı və bütün Türkiyə xalqını ürəkdən təbrik edib, ən səmimi və xoş arzularını çatdırıb.***

AZƏRTAC xəbər verir ki, təbrik məktubunda qeyd edilib: "Sizin həyata keçirdiyiniz uzaqgörən və qətiyyətli siyasət nəticəsində bu gün Türkiyə bütün sahələrdə yeni zirvələr fəth edir, böyük uğurlara imza atır, beynəlxalq məsələlərdə söz sahibi olan güclü və qüdrətli dövlət kimi tanınır. Qlobal aləmdə və regionda cərəyan edən proseslərdə fəal və prinsipial mövqeyi, sülhün, sabitliyin bərqərar olması üçün səyləri Türkiyəyə dünyada böyük nüfuz və etimad qazandırmışdır. Biz qardaş ölkənin hər bir uğuruna sevinir və bundan fərəhlənirik.



Xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və "Bir millət, iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək pillədə qərarlaşması böyük fəxr hissi doğurur. Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş dövlətlərarası əlaqələrimizin gündəngünə daha da dərinləşməsi və yeni məzmun kəsb etməsi qəti siyasi iradəmizin və ardıcıl birgə səylərimizin parlaq ifadəsidir. Bu gün dünyada bənzəri olmayan Azərbaycan-Türkiyə qardaşlığı, birliyi və müttəfiqliyi eyni zamanda regionda sülhə, təhlükəsizliyə, rifaha və əməkdaşlığa xidmət edən mühüm amildir.

Oktyabrın əvvəlində Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün Qəbələyə səfərinizi ən xoş təəssüratlarla xatırlayıram. Sizin Türk Dünyasının birliyi və TDT-nin beynəlxalq aləmdə nüfuzunun artırılması istiqamətində əzmkar fəaliyyətinizi xüsusi qeyd etmək istərdim.

Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş və zamanın sınağından çıxmış qardaşlıq münasibətlərimizin və səmərəli əməkdaşlığımızın xalqlarımızın iradəsinə uyğun olaraq daha da genişləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimiz bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyik".

Prezident İlham Əliyev belə bir əlamətdar gündə Rəcəb Tayyib Ərdoğana möhkəm cansağlığı, xoşbəxtlik, məsul dövləti fəaliyyətində uğurlar, qardaş Türkiyə Respublikasına və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıb.

# Niderland 29 oktyabr seçkilərinə nasistlərin planları ilə gedir

Siyasətçilər əksəriyyəti nasistlər tərəfindən terrorla hədələndikləri üçün seçki marafonundan geri çəkilirlər

Avropanın bir sıra dövlətlərində, xüsusilə də Fransa, Almaniya, Niderland və Yunanıstanda baş verən hakimiyyət-xalq qarşıdurması getdikcə daha kritik xarakter almaqdadır. Əksər ölkə vətəndaşları hakimiyyətin apardığı iqtisadi, sosial, hərbi siyasətini kəskin şəkildə tənqid edir və bu siyasətin onların daha da əzilməsinə xidmət etdiyi qeyd olunur. Artıq Fransa və Niderladda baş verən xaos və anarxiya idarəedilməz məcraya yüksəlib. Hesab olunur ki, hər iki ölkədə yaşananlar ölkənin dağılmasına gətirib çıxara bilər. Fransada əhalini narazı salan əsas amil E.Makronun səhv, yanlış siyasətidirsə, Niderlandda hökm sürən vətəndaş qarşıdurmasının başlıca səbəbi oktyabrın 29-da keçirilməsi nəzərdə tutulan növbədənkənar parlament seçkilərinə hazırlıqların nasist təmayüllü təşkilatların fəal müdaxiləsidir. Parisdə ötən həftədən başlayan etiraz aksiyaları tədricən bütün ölkə ərazisinə yayılmaqdadır. Kütləvi aksiyaların iştirakçıları Fransa Prezidenti Emmanuel Makronun istefasını, ölkənin Avropa İttifaqı və NATO-dan çıxması tələb edirlər. On minlərlə etirazçı Parisin küçələri ilə hərəkət edərək "Makron, get!", "Lekornuya səs ver!", "Avropa İttifaqından çıx!" şüarları səsləndiriblər. Fransanın "Vətənpərvərlər" partiyasının lideri və mitinqin təşkilatçısı Florian Filippot bildirib ki, hazırda hökumətlər qısa müddətə təyin olunur: "Əslində, ciddi olan odur ki, kabinet yalnız büdcəni Nazirlər Şurası vasitəsilə ötürmək üçün təyin olunur". E.Makronun istefaya getməli olduğunu qeyd edən Florian Filippot onu da bildirib ki, baş verənlərdə demokratiyanın zərrəsi belə yoxdur: "Ölkə tam bərbad vəziyyətdədir. Baş nazirlər bir-birinin ardınca dəyişdirilir". Partiya lideri Fransanın Avropa İttifaqı və NATO-dan dərhal çıxmasını tələb edib: "Biz NATO-dan, Avropa İttifaqından çıxmalıyıq. Aİ daxilində mövcud olmağa davam etsək, senzura, müharibə və yoxsulluqla üzləşəcəyik".

Bu arada Fransada aparılan sorğular diqqət çəkib. Belə ki, ölkə əhalisinin 74, 4 faizi, eləcə də Melanşondan Le Penə qədər bütün müxalif qüvvələr Prezident Emmanuel Makronun istefasını tələb edir. O, hakimiyyətdə olduğu dövr ərzində ən böyük siyasi təcridlə üz-üzə qalıb. Əhalinin və siyasi təşkilat rəhbərlərinin iddialarına görə, Emmanuel Makronun Fransa Respublikasının Prezidenti postundan istefa verməsi ölkəni tarixi milli siyasi böhrandan çıxarmaq üçün zəruri sayılır.

## Avropa təhlükə ilə üz-üzədir

Fransada yaşanan ağır, böhranlı durum onu deməyə əsas verir ki, əhali E.Makrondan ciddi şəkildə narazıdır. Əgər Makron istefa verməkdən imtina edərsə, o zaman ölkədə vətəndaş müharibəsi qaçılmazdır. E.Makronun ən yaxın silahdaşlarından olmuş keçmiş baş nazir (2017-2020) Eduar Filip bəyan edib ki, "Makron istefa verməlidir ki, növbədənkənar prezident seçkilərinə hazırlıqlar başlansın". Eyni bəyanatla Respublikaçılar Partiyasının nümayəndəsi Kristof Qomarda çıxış edib. O bildirib ki, nəhəng dövlət borcu olan ölkədə qeyri-müəyyənlik və siyasi qeyri-sabitlik fəlakətlidir: " Makron Fransanın xeyrini istəyirsə, istefa verməlidir. O getməlidir". Sosialist Partiyasının lideri Olivye For çıxış yolunu belə görür: "Makronun iki seçimi var: ya istefa verməli, ya da sosialist baş nazir təyin etməlidir".





Yaşıllar Partiyasının lideri Marin Tordelye şərh edib: "Makronun üç seçimi var: istefa, növbədənkənar seçkilərin təyin edilməsi və ya solçu qüvvələrlə birgə hökumət". "Əyilməz Fransa" hərəkatının (LFI, radikal solçular) lideri Jan-Lük Melanşon dəfələrlə vurğulayıb: "Makron istefa verməlidir. Əgər o getməsə, biz impiçment proseduruna başlamağa məcbur olacağıq". "Milli Birlik" partiyasının (RN, radikal sağçılar) qurucusu Marin Le Pen isə vəziyyəti belə ümumiləşdirir: "Özünün yaratdığı xaos qarşısında Makron ya istefa verməli, ya da növbədənkənar seçkilər təyin etməlidir. Bəlkə də hər ikisini".

Söz yox ki, Fransa yeni fəlakətlərlə üzləşəcəyi təqdirdə müstəmləkə altında saxladığı ərazilərdə müstəqillik mübarizəsi güclənəcək. Daha doğrusu, artıq Fransa Polineziyası, Yeni Kaledoniya, Çad, Konqo, Seneqal, Martinika, Qvadelupa, Maohi Nui, Madaqaskar və Kamerunda əhali küçələrə çıxaraq müstəqillik uğrunda mübarizənin yeni mərhələsinə başladıqlarını bəyan ediblər. Bu isə onu təsdiq edir ki, Fransa daxilində vətəndaş qarşıdurması yarandığı təqdirdə müstəmləkə altında olan xalqlar imkanlardan bəhrələnməklə fransız ordularını ərazilərindən qovub, dövlətçiliklərini qurmağa nail olacaqlar.

## Nasistlər Niderlandda yeni idarəetmə üsulu yaradır

Fransada yaşanan böhranlı proseslər Niderlandda daha gərgin formada təkrarlanır. Bunun səbəbi oktyabrın 29-da keçirilməsi planlaşdırılan növbədənkənara parlament seçkiləri ilə əlaqələndirilsədə, başqa bir səbəb də mövcuddur. O da Almaniya faşizmindən bəhrələnən nasizmin Niderlandda daha geniş yayılmasıdır. Vəziyyət o həddə çatıb ki, Niderland hakimiyyət orqanları nasimin ideoloji əsaslarını mənimsəyir və təbliğ edirlər. Digər tərəfdən isə Niderlandın dövlət büdcəsindən hər il milyardlarla avro nasizmin təşkilatlanmsı və formalaşmasına, eləcə də əməkdaşlarının maddi, sosial problemlərinin həllinə ayrılır. Hakimiyyətin müəyyən şəxsləri nasizmə qarşı çıxdıqda nasist təşkilatların təşkilatçılığı ilə ölkədə etiraz aksiyaları təşkil olunur. Əksər hallarda etiraz aksiyaları polislə qanlı toqquşmalarla müşayət olunur. Bir qədər əvvəl Rotterdamda onlarla adamın yaralanması, yüzlərlə insanın isə həbs olunması ilə nəticələn iğtişaşları misal olaraq göstərmək olar. Az sonra Rotterdamdan başlayan iğtişaşlar ölkənin bütün ərazilərinə yayıldı. Yayılan məlumatlara görə, ölkənin bir neçə şəhərində iğtişaşlar zamanı polis atəşfəşanlıq və daşla hücuma məruz qalıb. Onlarla hüquq-mühafizə orqanlarının əməkdaşı yaralanıb. Rotterdam polisi 100-dən çox avtomobilin yandırıldığını, Amsterdam, Haaqa və digər şəhərlərdə isə zorakı izdihamı dağıtmaq üçün çevik polisə ehtiyac olduğu bildirilib.

Hazırda Niderland daxilində yaşanan acınacaqlı hadisələrin təşkilatçıları isə əsasən nasistlərdir. Nasistlərdən hesab olunan ifrat sağçı Azadlıq Partiyasının lideri Gert Vildersin miqrasiya siyasəti ilə bağlı fikir ayrılığına görə nazirlərini geri çağırması nəticəsində Baş nazir Dik Şofun hökumət kabinəsi dağılıb. Bununla da Dik Şofun 11 aylıq hakimiyyəti Niderland siyasi tarixində ən qısa ömürlü hökumətlərdən biri kimi düşüb. Növbədənkənar parlament seçkilərində demokratik, azad düşüncəli siyasi partiyaların qələbə qazanmaq şansları yoxdur. Çünki nasitlər bütün sahələrə nəzarəti öz əllərinə alıblar. Hətta nasistlər tərəfindən terrorla hədələnən bəzi siyasətçilər qorxduqları üçün seçki marafonundan geri çəkilirlər.

## Nasistlər seçkiərəfəsi siyasətçiləri terrorla hədələyirlər

Hadisələrin inkişafı onu deməyə əsas verir ki, Niderlandda idarəedilməz durum hökm sürür. Nasistlərin tələblərini yerinə yetirmək istəməyən istənilən fərdlər, qruplar ciddi şəkildə cəzalanırlar. Öldürülən, qarət oluna, işgəncələrə məruz qalan insanların sayı onlarladır. Bütün bu kimi cəza tədbirlərini nasistlər həyata keçirilər. Nasistlərin hədəfinə tuş gələnlərdən biri də Azadlıq partiyasının sədri Xert Vildersdir. O seçkilərin əsas qaliblərindən olmasına baxmayaraq nasistlər tərəfindən ciddi şəkil də təhdid olunub. Hətta ona uşaqlarının girov götürüləcəyi, həyat yoldaşı və qardaşının öldürüləcəyi hədəsi ünvanlanıb. Hədənin ciddiliyini anlayan Azadlıq partiyasının sədri Xert Vilders (Geert Wilders) seçki kampaniyasını dayandırdığını bəyan edib. O özünün sosial şəbəkə hesabında yazdığı məlumatında bildirib ki, terror hücumu planlarında hədəf alındığı barədə ölkənin antiterror agentliyi NCTV tərəfindən məlumatlandırılıb: "NCTV mənə bildirdi ki, mən də terror təhdidlərinin hədəfindəyəm. Agentlik qalıq təhlükə olmadığını desə də, pis bir hissim var. Bu səbəbdən, hazırda bütün seçki fəaliyyətlərimi dayandırıram".

X.Vilders X (keçmiş Twitter) sosial şəbəkəsində yayımladığı açıqlamasından bir neçə saat əvvəl, təhlükəsizlik səbəblərini əsas göstərərək, iştirak etməli olduğu radio debatına son anda qatılmaqdan imtina edib.

Belçika mediası VTM Nieuws-un yaydığı məlumata görə, terror planlarında, həmçinin Belçikanın Baş naziri Bart Dö Vever (Bart De Wever) və Antverpen şəhərinin meri də hədəfdə olub.

Oktyabrın 29-da keçiriləcək seçkilər öncəsi bu cür təhdidlərin üzə çıxması, ölkədə təhlükəsizliklə bağlı narahatlıqları artırıb. X.Vildersin kampaniyasını dayandırması, siyasi gərginliyi və qeyri-müəyyənliyi daha da gücləndirə bilər.

Bütün bu kimi hadisələr və proseslər onu təsdiq edir ki. Niderlan dövlətçilik anlayışını tədricən itirməyə başlayır. Daha doğrusu, artıq Niderland mövcudluğunu tədricən itirməkdədir. 29 oktyabr növbədənkənar parlament seçkilərinin isə qeyri-demokratik keçəcəyi şübhəsidir. Çünki seçkiləri, əslində, nasistlər təşkil edir və keçirlər. Təbii olaraq da seçkilərin qalibi nasistlər olacaq.

***İLHAM ƏLİYEV***

# Güclü və qüdrətli Türkiyə!

## Prezident İlham Əliyev: "Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil"

***Dost, qardaş ölkə olan Türkiyə Cümhuriyyəti müstəqilliyinin 102-ci ildönümünü qeyd edir. Siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli Türkiyə 1923-cü il oktyabrın 29-da idarəetmə formasına görə respublika elan olunaraq 102 ildir ki, müstəqil yaşayır. Siyasətini dünyəvilik, demokratiya kimi prinsiplər əsasında quran Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atıb.***

Qeyd edək ki, Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürk Qurtuluş savaşında Qərb ölkələri üzərində qələbədən sonra 1923-cü il oktyabrın 29-da Türkiyədə respublika qurulduğunu elan edib.

Tarixi dövrə nəzər salsaq görərik ki, Türkiyə dünyanın siyasi və hərbi baxımdan çox mürəkkəb dövründə respublika olmaq qərarına gəlir. Belə ki, Birinci Dünya müharibəsindən məğlub ayrılan Osmanlı imperiyası İngiltərə, Yunanıstan, Fransa və İtaliya kimi xarici dövlətlərin işğalı ilə üzləşib. Belə bir dövrdə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə türk vətənsevərlər 1919-cu il mayın 19-da Samsundan ölkənin azadlığı uğrunda mübarizəyə başlayıblar. Ağır və əzmkar mübarizə qısa müddət sonra müsbət nəticəsini verməyə başladı, vətən torpaqları düşmən tapdağından xilas edildi. Tarixi zəfərlərlə zəngin olan Türkiyənin zəfərləri sırasında ən önəmli yerlərdən birini tutan 30 avqust 1922-ci ildə sonu qələbə ilə bitən Dumlupınar savaşı olub.

### "APARDIĞI MÜBARİZƏ MƏZLUM MİLLƏTLƏRİN, BÜTÜN ŞƏRQİN MÜBARİZƏSİDİR"

Mustafa Kamal Paşa həmin dövrdə deyirdi: "Türkiyənin bugünkü mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir". Mustafa Kamal Paşa tarixi əmrini vermişdi: "Ordular! İlk hədəfiniz Ağ dənizdir. İrəli!" Bu əmri alan qəhrəman türk ordusu böyük bir qələbə həyəcanı ilə irəli atıldı. Türk süvariləri, xüsusilə çevik hərəkətləri ilə uğurlar qazandılar. Aparılan mübarizə və mücadilə uğurlu bir sabahla nəticələndi. Tarixi mənbələrdə qeyd olunur ki, 1923-cü il oktyabrın 23-də Ankara paytaxt elan edildi. Oktyabrın 28-də axşam Mustafa Kamal Paşa yaxın dostlarını Çankayaya dəvət etdi və "sabah respublikanı elan edəcəyik", dedi. Oktyabrın 29-da Mustafa Kamal Atatürk əvvəlcədən hazırladığı və ölkənin respublika elan olunmasını nəzərdə tutan layihəni TBMM-ə təqdim etdi. Həmin layihədə "Türkiyə dövlətinin forması cümhuriyyətdir. Türkiyə dövləti Böyük Millət Məclisi tərəfindən idarə olunur" sözləri yer alırdı. Parlament həmin qanun layihəsini qəbul etdi və Türkiyə respublika elan olundu. Həmin tarixdən etibarən Osmanlı imperiyası rəsmi şəkildə Türkiyə Cümhuriyyəti ilə əvəzləndi.

### "AZƏRBAYCANIN KƏDƏRİ BİZİM KƏDƏRİMİZ, SEVİNCİ BİZİM SEVİNCİMİZDİR"

Dövlətçilik ənənələri olmadan müstəqilliyə nail olmaq və onu qoruyub saxlamaq əlbəttə ki, mümkün deyil. Ötən 102 ildə Türkiyə Cümhuriyyəti müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirdi. Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyev tərəfindən bir millət, iki dövlət səviyyəsinə yüksəldilmiş Azərbaycan-Türkiyə dostluq və qardaşlığı bu gün regionda əmin-amanlığın və sabitliyin təminatıdır. Vətən müharibəsində Türkiyə dövlətinin Azərbaycana göstərdiyi siyasi dəstək bunun bariz ifadəsidir. Bu məqamda Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" ifadəsini xatırlamaq yerinə düşər.



Beynəlxalq Qars müqaviləsinə əsaslanan siyasi müttəfiqliyimiz 100 ildən sonra Şuşa Bəyannaməsi ilə bir daha təsdiq olunmuş, həm ikitərəfli münasibətlərimiz, həm də regional əməkdaşlığımız yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq".

Ölkə prezidentlərinin 2021-ci il iyunun 15-də türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada dostluq və qardaşlığımızı gücləndirəcək, əlaqələrin daha da inkişafına səbəb olacaq Şuşa Bəyannaməsini imzaladılar. Bu Bəyannamə müttəfiqlik münasibətlərinin gündən-günə genişlənməsində əhəmiyyətli bir sənəddir. Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəlmiş Türkiyə-Azərbaycan birliyi bu gün nəinki region üçün, dünya miqyasında önəmli amilə çevrilib. Bu gün Türkiyə-Azərbaycan əlaqələri yalnız iki ölkəyə deyil, bölgədə sülh və sabitliyə xidmət etməkdədir. Ümummilli Lider Heydər Əliyevin bütün türk dünyasında məşhur olan kəlamı - "Bir millət, iki dövlət" anlayışının gerçək həyatda təcəssümünün şahidi olduğumuz tarixi məqamda Türkiyənin dünyada artan nüfuzu və rolu hər bir azərbaycanlıda qürur hissi yaşadır.

Bu gün Azərbaycan-Türkiyə münasibətləri Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, dünyada bənzəri olmayan qarşılıqlı etibara və etimada əsaslanır. Bizim xalqlarımızı birləşdirən yalnız etnik, dini və mədəni köklər deyil, eyni zamanda, mürəkkəb və ziddiyyətli proseslərin cərəyan etdiyi XXI əsrdə bir-birimizin yanımızda olmağımızdır.

### KAHRAMANMARAŞ ŞƏHƏRİNDƏ "AZƏRBAYCAN" MƏHƏLLƏSİ

Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılışı Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin ən bariz nümunələrindən biridir. 2023-cü il fevralın 6-da baş vermiş dəhşətli zəlzələ 50 mindən çox insanın həyatına son qoydu, yüz mindən artıq insanın xəsarət almasına və böyükmiqyaslı dağıntılara səbəb oldu. Bu ağır günlərdə Azərbaycan dövləti və xalqı qardaş Türkiyənin yanında olaraq, əsl həmrəylik və qardaşlıq nümunəsi göstərdi. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər."

Xalqlarımız bu ağır faciənin kədərini birgə yaşadılar. İlk andan etibarən Türkiyənin kədərinə şərik olan Azərbaycan xalqı "Bir millət, iki dövlət" prinsipinə sadiqliyini əməli şəkildə nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə fəlakətin ilk günlərindən Türkiyəyə göndərilən axtarış-xilasetmə dəstələri, tibbi heyət, humanitar yardımlar xalqlarımız arasında sarsılmaz birliyin növbəti təzahürü idi. Azərbaycan dövlətinin təşəbbüsü və birbaşa dəstəyi ilə Kahramanmaraş şəhərində qısa müddətdə inşa edilən "Azərbaycan" məhəlləsi ölkələrimiz və xalqlarımız arasındakı birliyin və həmrəyliyin rəmzidir. Həyata keçirilən tikinti işləri nəticəsində 1194 mənzildən ibarət 68 yaşayış binasının, Heydər Əliyev adına müasir ibtidai məktəbin, uşaq bağçasının, mədəniyyət mərkəzi və ticarət obyektlərinin inşası zəlzələdən zərər çəkmiş minlərlə ailəyə sevinc bəxş etməklə, xalqlarımız arasındakı qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verib. Azərbaycan Prezidentinin məhəllənin açılış mərasimində bildirdiyi kimi, Azərbaycan və Türkiyə yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birinin yanındadır, bir-birinin gücünü artırır.

### "BİZİM TARİXİMİZ PARLAQDIR VƏ TARİXİMİZİN ƏN ÖNƏMLİ ANLARINDA BİZ BİR YERDƏ İDİK"

Azərbaycan-Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, infrastrukturun qurulmasında da qardaş Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycanın gələcəyi gələcəyimiz, sevinci sevincimiz, taleyi taleyimiz, kədəri kədərimizdir. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportunun açılışı Azərbaycandan dünyaya bir mesaj oldu. Hava Limanının Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakı ilə açılışı qardaş ölkə ilə birliyimizi, dostluğumuzu, gücümüzü bir daha göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqlarının dalğalanması da qırılmaz dostluğumuzdan qaynaqlanır. Azərbaycan və Türkiyə prezidentlərinin Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini birgə qoymaları tarixi bir hadisə olaraq əbədiləşdi. Zəngəzur dəhlizi türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Zəngəzur dəhlizi yalnız Azərbaycanın və Türkiyənin deyil, bütün region xalqlarının həyatında dəyişikliklər mərhələsinin başlanmasına səbəb olacaq. "Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik" - deyən dövlət başçısı bildirib ki, Bakının ermməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar: "Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq". Zəngilanın işğaldan azad edilməsindən iki il sonra qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıla səfər etməsi və Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirakı tarixi hadisəyə çevrildi. Hər zaman bir-birinin yanında olan Azərbaycan və Türkiyənin birliyinin, həmrəyliyinin dünya üçün nümunə olduğu bir daha təsdiqləndi. Əlbəttə ki, bu və ya digər yaddaqalan hadisələrlə zəngin olan tarixi qardaşlıq nümunələri bir daha göstərdi ki, bizim birliyimiz Azərbaycan - Türkiyə birliyi əbədi və sarsılmazdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Əməkdaşlıq praqmatik səviyyədə kifayət qədər uğurla davam edir”

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qazaxıstan Respublikasına dövlət səfəri və bu ölkədə səfərə yüksək diqqət dövlətlərimiz arasında yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunan tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, cənab İlham Əliyevin ifadə etdiyi kimi, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanan starteji tərəfdaşlıq və müttəfiqlik münasiblərinin bərqərar olunduğunu göstərməkdədir. Cənab İlham Əliyevlə təkbətək görüşdə Prezident Kasım-Jomart Tokayevin ifadə etdiyi kimi, ”mübaliğəsiz, əminliklə demək olar ki, Qazaxıstan və Azərbaycan təkcə dost dövlətlər deyil, həm də qardaş xalqlar və millətlərdir. Ona görə də Sizin ölkənizlə çoxşaxəli əməkdaşlığın inkişafı bizim üçün böyük prioritetdir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib. Onun sözlərinə görə, son 3 il ərzində Azərbaycan Prezidentinin Qazaxıstana 7, cənab Kasım-Jomart Tokayevin isə ölkəmizə 6 səfəri baş tutub:



”Dövlət başçımızın Qazaxıstanın ”Kazinform” agentliyinə müsahibəsində də ifadə etdiyi kimi, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə, əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir. Təsadüfi deyil ki, ötən dövr ərzində siyasi, iqtisadi, ticari, investisiya, mədəni, humanitar və digər sahələrdə səmərəli əməkdaşlığın mexanizmi yaratmaq üçün hüquqi bazis rolunu oynayan 170-dən artıq sənəd imzalanıb və ikitərəfli münasibətlərimizin sağlam və qarşılıqlı faydalı meyillər üzrə inkişafı üçün əhəmiyyətli normativ bazis formalaşıb. Ölkələrimiz arasında əməkdaşlıq praqmatik səviyyədə də kifayət qədər uğurla davam edir.

Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan arasında 15-dək sənədin mübadiləsi bu sahədə kifayət qədər güclü iradənin hakim olduğunu göstərməkdədir. Bu məsələdə Qazaxıstanın mövqeyi kifayət qədər korrektdir. Qardaş dövlət yeni yaranan reallıqda Azərbaycanın güclənən mövqeyini çox düzgün qiymətləndirə bilir. Cənab Tokayev də bu gün dövlət başçımıza xitabən bir daha ifadə etdi ki, ”Azərbaycan Sizin güclü liderliyinizlə öz mövqelərini xeyli möhkəmləndirib, beynəlxalq arenada nüfuzunu artırıb və dünyanın sizə aid hissəsində regional güc kimi çox mühüm rol oynayır. İqtisadi-ticari əməkdaşlığın, hətta siyasi tərəfdaşlığın inkişaf etdirilməsi də bizim üçün təxirəsalınmaz və çox mühüm vəzifədir”.

Təsadüfi deyil ki, məhz bu vəzifə rəhbər tutularaq Azərbaycanda Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb və bu, ölkələrimiz arasında iqtisadi-ticari əməkdaşlığın spektrinin çox geniş olduğunu göstərməkdədir. Həmçinin Azərbaycan və Qazaxıstan arasında nəqliyyat, logistika əməkdaşlığı yalnız iqtisadi artımda ehtiva olunan ikitərəfli əməkdaşlıq hesab edilə bilməz, bu bütövlükdə regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan və Orta Dəhlizin vacib seqmenti kimi çıxış edən meyara çevrilib.

Dövlət başçımızın ”Kazinform”a müsahibəsində də ifadə etdiyi kimi, Azərbaycanla Qazaxıstan arasında əlaqələrin möhkəmlənməsində aparıcı müstəvi isə, heç şübhəsiz ki, Türk Dövlətləri Təşkilatıdır və bu platforma bizə istər Azərbaycan-Qazaxıstan, istərsə də bütün türk dövlətləri ilə mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığın sistemli və ardıcıl xarakterdə davam etdirilməsinə, o cümlədən siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və bütövlükdə humanitar əməkdaşlığın inkişafı üçün önəmli rol oynamaqdadır.

Bu mənada, Azərbaycan Prezidentinin Qazaxıstana dövlət səfərinə istər aidiyyəti dövlət strukturları, istərsə də media, həmçinin vətəndaş cəmiyyəti institutlarının xüsusi marağı başa düşüləndir və ölkələrimiz arasında getdikcə dərinləşən qardaşlıq münasibətləri fonunda, heç şübhəsiz ki, qazax xalqı Azərbaycanla münasibətlərə milli maraqların və mənafelərin zəruri şərti kimi baxmaqdadır. Eyni zamanda Azərbaycan da cənab İlham Əliyevin bu gün Astanada ifadə etdiyi kimi, bütün istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsini hədəfləyir”.

***Arzu Qurbanlı***

---

*EKSPERT AÇIQLADI*

# “Süni intellekt təhsildə yeni dövrün qapısını açır”



”Süni intellektin təhsildə tətbiqi artıq bir seçim deyil, qaçınılmaz prosesdir. XXI əsrin təhsil modelləri texnologiya ilə sintez olunaraq daha çevik, daha fərdiləşmiş və daha səmərəli idarəetmə sistemləri yaradır. Lakin bu inkişafın arxasında həm böyük imkanlar, həm də ciddi risklər dayanır. Təhsil siyasəti bu texnoloji dalğanı yalnız innovasiya vasitəsi kimi deyil, həm də sosial məsuliyyət sahəsi kimi dəyərləndirməlidir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

O bildirib ki, Elm və Təhsil Nazirliyinin son illərdə süni intellekt texnologiyalarını tədris prosesinə inteqrasiya etmək istiqamətində atdığı addımlar - ”Rəqəmsal bacarıqlar” fənninin genişləndirilməsi, ”Rəqəmsal məktəb” platformasının istifadəsi, müəllimlərin İKT hazırlığının artırılması kimi təşəbbüslər müsbət istiqamətdə sistemli yanaşmanın göstəricisidir: ”Məsələn, 2024-cü ildə Azərbaycan məktəblərinin 72 faizində rəqəmsal tədris infrastrukturu quraşdırılıb, bu da 2019-cu illə müqayisədə iki dəfədən çox artım deməkdir. Bu, dövlətin ”Təhsil haqqında” Qanunun 5-ci maddəsində əks olunan ”təhsilin elmi və texnoloji əsaslarla təşkili” prinsipinə uyğunluq təşkil edir.

Süni intellekt tədris prosesinə daxil olduqda fərdiləşdirilmiş öyrənmə imkanlarını genişləndirir. Şagirdin sürətinə və maraq dairəsinə uyğun tapşırıqların avtomatik təyin olunması öyrənməni fərdiləşdirilmiş və adaptiv hala gətirir. Bu, xüsusilə aşağı nəticə göstərən şagirdlər üçün motivasiya yaradır. Dünya təcrübəsində, məsələn, Estoniyada və Cənubi Koreyada tədris platformalarının 50 faizdən çoxu süni intellekt əsaslı ”adaptive learning” mexanizmlərindən istifadə edir və nəticədə 5 il ərzində PISA göstəricilərində 8-12 bal artım qeydə alınıb.

Lakin texnologiyanın təhsildə rolu yalnız nəticə deyil, həm də dəyər aspektindən qiymətləndirilməlidir. Süni intellektin geniş tətbiqi təhsildə insan amilinin zəifləməsinə gətirib çıxara bilər. Təhsil prosesi təkcə informasiya ötürmək deyil, həm də emosional və sosial ünsiyyət mühitidir. Finlandiya və Norveç kimi ölkələr bu riski azaldaraq, süni intellekti yalnız köməkçi funksiya daşıyan ”öyrənmə analitikası” səviyyəsində saxlayır. Burada məqsəd müəllimi əvəz etmək deyil, onun qərar vermə mexanizmini dəstəkləməkdir.

Digər mühüm məsələ qiymətləndirmə sisteminin dürüstlüyüdür. Əgər şagirdlər süni intellekt vasitəsilə tapşırıqları avtomatik yerinə yetirirsə, müəllimin onun bilik səviyyəsini real ölçməsi çətinləşir. Bu, akademik dürüstlük prinsipinə ziddir və ”Təhsil haqqında” Qanunun 30-cu maddəsində təsbit olunan ”obyektiv qiymətləndirmə hüququ”nu zəiflədə bilər. ABŞ-da 2023-cü ildə aparılan bir tədqiqatda göstərilib ki, universitet tələbələrinin 37 faizi ChatGPT və ya oxşar alətlərdən akademik tapşırıqlarda istifadə edir və onların 61 faizi bunu müəllimdən gizlətdiyini etiraf edib. Bu statistika göstərir ki, nəzarətsiz süni intellekt istifadəsi uzunmüddətli perspektivdə təhsil keyfiyyətinə zərbə vura bilər.

Süni intellektin tətbiqi həmçinin məlumat təhlükəsizliyi baxımından



da tənzimlənməlidir. Şagirdlərin yazılı cavabları, səs faylları, davranış analizləri və performans göstəriciləri süni intellekt sistemlərində saxlanılır. Bu, şəxsi məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq təhlükəsizlik tədbirləri tələb edir. Avropa İttifaqının ”AI Act” sənədinə əsasən, təhsil sistemində istifadə olunan süni intellekt alətləri şəffaflıq, məlumatların məxfiliyi və etibarlılıq meyarlarını ödəməlidir. Azərbaycan da bu istiqamətdə normativ-hüquqi bazasını təkmilləşdirməli, milli ”Etik AI təhsil çərçivəsi” formalaşdırmalıdır.

Bütün bunlarla yanaşı, süni intellektin ən böyük üstünlüyü təhsil bərabərsizliyini qismən azalda bilmə potensialıdır. Uzaq rayonlarda yaşayan şagirdlər üçün onlayn süni intellekt platformaları, virtual dərslər və avtomatik qiymətləndirmə sistemləri keyfiyyətli təhsilə çıxışı təmin edə bilər. Məsələn, Hindistanda 2022-ci ildən həyata keçirilən ”AI4All” proqramı nəticəsində kənd məktəblərində distant dərslərin keyfiyyəti 40 faiz yüksəlib.

Azərbaycan kontekstində süni intellektin tətbiqi ilə bağlı əsas məqsəd texnologiyanı məqsəd deyil, vasitə kimi görmək olmalıdır. Elm və Təhsil Nazirliyi bu sahədə addımları davam etdirməli, amma eyni zamanda etik nəzarət, müəllim hazırlığı və hüquqi baza üzərində paralel işləməlidir. Hər yeni sistem müəllimin nüfuzunu azaldan deyil, onu dəstəkləyən formada qurulmalıdır. Müəllim süni intellektin ”rəqibi” deyil, onun ”idarəedicisi” olmalıdır.

Hesab edirəm ki, süni intellekt təhsildə yeni dövrün qapısını açır. Amma bu qapıdan kimlərin keçəcəyi - təhsilin insan yönümlü qalması və ya texnologiyanın kölgəsində sıradan çıxması - idarəetmənin nə dərəcədə məsuliyyətli olacağından asılıdır. Elm və Təhsil Nazirliyinin indiki kursu bu baxımdan müsbət və strateji istiqamətdədir, lakin davamlı uğur üçün qərarların yalnız texnoloji deyil, sosial və etik ölçülərlə də harmoniyada olması vacibdir”.

***Səbinə Hüseynli***

# Uşaqlara qışqırmayın, onları anlayın

*Uşaqlara kobud insanlarla ünsiyyət qaydalarını öyrətmək vacibdir*

***Davranışından asılı olmayaraq uşaqlar, böyüklərin - müəllimlərin, qonşuların, valideynlərinin və s. kobudluğu ilə qarşılaşa bilər. Uşaqlar özlərindən böyük olanların nəzakətdən kənar davranışlarına necə reaksiya verməlidirlər? Onlara qışqıran, kobudluq edən böyüklər bunu hansı səbəbdən edir? Bu barədə Gazeta.Ru-ya psixoloqlar maraqlı rəylər verib.***



Psixoloq Yuliya Tokarçuk: "Təəssüf ki, gündəlik həyatda insan tez-tez digər insanların kobudluğu və nəzakətsizliyi ilə üzləşməli olur. Əksər vaxtlar böyüklər belə davranış əks etdirə bilirlər, hədəfdə ən yaxın adamlar olur. Böyüklər bəzən alışmış, öyrəşmiş ola bilirlər, amma uşaqlar buna hazır deyillər. Təhsil prosesində böyüklərin səlahiyyəti həmişə mühüm rol oynayır, buna görə bir çox uşaqlar qışqıran müəllim və ya valideyn ilə qarşılaşa bilirlər.

Belə vəziyyətlərin qaçılmazlığını başa düşərək, uşaqlara başa salmaq lazımdır ki, ona hansı hallarda, nə kimi davranış olarsa buna etiraz etsin. Məsələn, uşaqlar bilməlidir ki, ona əl qaldıran, nalayiq ifadələr işlədən böyüklərə qarşı məsafəli davransın. Birlikdə kitab oxuyarkən, izlədiyiniz bir filmi və ya sadəcə, həyatınızdakı situasiyaları müzakirə edərkən, uşağınıza başa sala bilərsiniz ki, hətta böyüklər də səhv edə bilər.

Bir insanla qarşılıqlı əlaqə qurmaq bacarığı uşaq üçün ünsiyyətin mühüm əsasıdır. Hər hansı bir insandan - həkimdən, qonşudan, mağaza işçisindən sizə ünvanlanan kobud və ya nəzakətsiz ifadələri eşitdikdən sonra ona kobudluqla cavab verməklazım deyil, ən yaxşısı təmkinli davranmaq və mümkünsə mədəni formada qarşılıq bildirmək övladınıza öyrədəcəyiniz ən yaxşı davranışdır".





Klinik psixoloq Anastasiya Savina: "Kobud insanlarla ünsiyyət qurmaq nəinki uşaqlar, böyüklər üçün də asan deyil. Yetkinlərin ilk etdiyi səhv də uşağı belə insanlardan təcrid etməkdir. Bu, doğru deyil. Bizim həmişə kiminlə ünsiyyət quracağımızı, kiminlə qurmayacağımızı seçmək imkanımız olmur. Gələcəkdə uşaq oxşar vəziyyətlərlə qarşılaşarsa, kobud insanlarla ünsiyyət qurmalı olarsa necə davranacağını bilməyəcək. Birincisi, uşağa izah etmək lazımdır ki, biz bəzi zamanlarda bir insanın niyə bizə qarşı kobud davrandığını başa düşməyə bilərik. Həmişə yaxşı davranan, yaxşı ünsiyyət quran insanlar olmaya bilər, bəzi hallarda kobud, aqressiv insanla məcburi ünsiyyət qura bilərik. Ona başa salmalıyıq ki, o insanın xarakteri və ya düşdüyü mühit onu belə edir, uşağın bunda heç bir günahı yoxdur.

İkincisi, yaş saxtakarlıq, fırıldaqçılıq, aqressiv davranış və ya kobudluq üçün bəhanə deyil. Uşaqlar erkən yaşlardan şəxsi sərhədlərin formalaşmasına diqqət yetirməyi öyrənməlidir. Uşaq başa düşməlidir ki, onun hansı haqları var və özünü necə qorumalıdır. Əlbəttə ki, əvvəlcə bir yetkin insanın köməyinə ehtiyac duyacaq, lakin bu, şəxsi sərhədlər mövzusunda maarifləndirici söhbətlərə mane olmamalıdır.

Üçüncüsü, seçimlərin nə olduğunu müzakirə etməkdir. Biz, digər insanların pis davranışlarının qarşısını ala bilmərik, lakin reaksiyalarımızı idarə edə bilərik. Seçimlərdən biri kobudluğa qəzəbli cavab vermək əvəzinə xeyirxahlıq göstərməkdir. Bu, kobudluğun pis aurasını qıra, qarşı tərəfi yumşalda bilər. Bu seçim işə yaramırsa, uşaq qarşılaşdığı vəziyyətdən onun üçün məqbul olan digər variantı seçərək ətrafından yardım istəyəcək.

Uşaqlara empatiya hissini öyrətmək onlara ən vacib sosial bacarıqlardan birini öyrətmək deməkdir. Uşağa başa salın ki, qarşıdakı insan niyə bu davranışı seçib. O anlamalıdır ki, böyük insanlar anadangəlmə belə kobud, aqressiv olmurlar, ola bilsin ki, o, pis bir gün keçirir, ola bilsin ya ailəsində, ya da işində çətin vəziyyət yaşayır".

Ailə və klinik psixoloq, psixoanalitik Vera Zolotıx: "Uşaqlar onlara pis davranıldığını böyüklərin sayəsində anlamalıdır. Böyüklər onlara başa salmalıdır ki, pis davranan insan əslində doğru davranmayıb və uşaq bu davranışa layiq deyil. Belə olmasa uşaq özünə qarşı kobudluğa, zorakılığa normal baxacaq, çünki o hələ nəyin yaxşı, nəyin pis olduğunu bilmir. Normal vəziyyətin sakitlik, mülayimlik olduğunu anlayan uşaq onunla pis davranan hər hansı bir insana qarşı məsafəli davranacaq.

Bəzən uşaq böyüklərin onlara qışqırmasına, əsəbləşməsinə bir əsas tapa bilmir, çünki özünə normal gələn hər hansı bir davranışın əslində normal olmadığını anlamır. Ona görə özünə qarşı kobudluq edən böyüyə "mənə niyə qışqırırsan?" kimi sual da verə bilərlər. Bu zaman böyüklər düşünməyə məcbur olur, doğru davranmadıqlarını etiraf etməli olurlar və aramla, səbrlə səbəbini anlatmalıdırlar. Uşağın, böyüklərin kobudluğunun və nəzakətsizliyinin çox vaxt uşaqla əlaqəli olmadığını, özünün buna səbəb olmadığını bilməsi vacibdir. Əks halda, özünü həmişə günahkar kimi hiss edəcək".

**_Lalə Mehralı_**

## FELYETON



# Ağlınız başınıza gəldi?..

Yadınızdadır, sizə demişdim ki, qədirbilməz olmayın. Bunu o vaxt demişdim ki, siz toyuq yetişdirəni, ət gətirəni və satanı möhtəkir adlandırırdınız. Ətin qiymətinin bahalaşmasından gileylənirdiniz. Onda sizə demişdim ki, əşi, bu insanlar sizi düşünür də. Azacıq artım da hərdən ona görə olur ki, sizlər arada kartof, lobya, badımcan, əriştə, yarma, vermişel də yeyəsiniz. Yoxsa, nə qədər toyuq, ət yemək olar...

Hətta bunu da demişdim ki, camaat sizdən yana narahatdır ki, çox ət yeyib qocalmayasınız, həmişə gənclik təravəti üzünüzdə olsun, vaxtından əvvəl üz-gözünüz, əlləriniz qırışmasın. Siz nə etdiniz? Sizi düşünənlərin adını möhtəkir qoyub ətin qiymətində cüzi artımlar üçün səhərdən axşama deyindiniz.

Bax bu sətirləri xüsusilə sizə demişdim. Olduğu kimi təkrarlamaqla yenidən xatırlatmaq istəyirəm: Vallah, xətriniz qalsa da deyəcəyəm, qədirbilən deyilsiniz. Sizi düşünənlərin qədrini bilmədikcə, Allah sizə heç pul da yetirməyəcək ki, ət alıb yeyə biləsiniz. Bir gün o möhtəkir adlandırdıqlarınız sizdən elə inciyəcək ki, qiyməti qaldırıb qoyacaq ceyranın belinə, onda marketlərdə ətə yalnız şüşənin arxasından baxa-baxa qalacaqsınız... Onda ağlınız başınıza gələcək.

Budur, bax, həmin vaxt gəlib çıxdı. O qədər bədgüman oldunuz ki, baha qiymətə olan ət də qalxdı ərşə. Niyə qalxdı? Bunu bilməmiş deyilsiniz. O qədər qarğış-qiyamətiniz yazıq inəklərin xəstələnməsinə səbəb oldu. İndi gəlin bir salamat inək tapın, görək, tapa bilirsiniz? Hamısını etdiniz dabaq, qoydunuz ora.

Nə susdunuz, nə də kiridiniz ki, ətin qiyməti niyə qalxır? Camaatı hələ möhtəkir də adlandırdınız. Bütün bunlar Allaha xoş getmədi. Göydən bəla göndərdi. İndi pulunuz qalar əlinizdə, ət tapıb ala bilməzsiniz, ağlınız başınıza gələr.

Görün, bədduanızın gücünü ki, ölkədə bir inəkdən də yan keçmədi. Hamısı oldu dabaq. Bəlkə də yoluxmamışı olar. Ondan da artıq istifadə etmək qorxuludur. Çünki nə bilirik içində dərd nə yerdədir. Yedin, keçdi sənə, öldün getdin və ya xəstəxanalarda süründün, fərqi yoxdur.

Deyir, kiməsə yaşatdığını yaşamadan bu dünyadan köçmürsən. Gördünüz, ət satanları hər gün ətin qiymətini qaldırmaqda, ölkəyə mənşəyi bilinməyən ət gətirməkdə ittiham edirdiniz.

Nə oldu nəticə? Mal əti yoxa çıxdı. Buyurun, alın, görək, necə alırsınız, haradan alırsınız? Qoyun ətini də həmınız yeyə bilmirsiniz ki, təzyiqimiz qalxır. Hələ əvvəl yeyəndə qalxırdısa təzyiqiniz, indi qoyun ətinin qiymətini eşidəndə də qalxacaq.

Başqa çarə yoxdur, ya ət ehtiyatınızı qoyun əti ilə ödəyəcək, dabağın sağalmasını gözləyəcəksiniz, ya da toyuq əti ilə bu dövrü başa vuracaqsınız. Bilmək olmaz, bu dabaq nə qədər çəkər... Olar ki, müalicə prosesi o qədər sürətli olar ki, mallar sağalıb ayağa qalxar. Ola bilər də ki, bir qədər uzanar bu vəziyyət. Başqa nələrsə də ola bilər, kim bilir...

Hə, ağlınız başınıza gəldi? Gəldisə, bir də heç nədən şikayət etməyin. Yoxsa olacaqlar olanlardan daha dəhşətli ola bilər.

**_Mətanət Məmmədova_**

# ZƏNGİLAN: azadlığın 5 illik işığında

## İşğal tarixinə 9 gün qalmış azad edilən yurd yerimiz

Kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu ərazidə sərt quruluşa malik sıldırımlı qayaları özünə məskən seçən Zəngilanın əlindən alınmış əzəmətini qaytardı ona Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev və Milli Ordumuz. Hələ qədim dövrlərdən üzü bəri bağrından axan çayların əmələ gətirdiyi dərin dərələrdən, Oxçu və Bərgüşad çayları arasında füsunkar Süsən dağı silsiləsindən, bu silsilədən cənub-şərqə doğru enərək qarşıda uzanan ucsuz-bucaqsız Ağoyuq düzündən, şimal-şərqində Qarabağ silsiləsi və bu silsilənin getdikcə alçalaraq əmələ gətirdiyi Geyən çölündən, ümumilikdə bir füsunkarlıq abidəsi Zəngilandan düşmən ayağı kəsildi. Dünyada ll, Avropada l nadir çinar meşələrindən neçəsinə köksündə yer verən çinarlar diyarı, dağ vüqarlı, çinar əzəmətli Zəngilanın hüriyyəti özünə qaytarıldı. Dağlıq hissələrində 1800-2000 metr hündürlükdə olan enliyarpaqlı meşələrindən aşağıya doğru endikcə subalp və alp çəmənlikləri ilə təbiətin özünün özünə meydan oxuduğu bir möcüzənin fonunda 2020-ci ilin 20 oktyabr möcüzəsi baş verdi, Zəngilan azad edildi. Hansı ki, 1993-cü ilin 29 oktyabrında erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu və 9 gün sonra yenə də Zəngilandan, onun işğalından danışacaq, dərindən köks ötürəcək, təəssüf edəcəkdik. Lakin bu dəfə belə olmadı. İşğala 9 gün qalmış bütün bu ağrı-acıya son qoyuldu. Zəngilan düşmən tapdağından azad edildi.




### 636-cı ilin şəhəri -Zəngilan











Azərbaycanın hər qarış torpağı tarixdir, qədimdir, əsrlərin o üzüdür. Elə Zəngilan da.. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. Zəngilan şəhəri dedikdə, əslində Pircavan şəhəri nəzərdə tutulmalıdır. Çünki Zəngilan şəhərinin əsl adı Pircavan, yaxud da Pirçivan olmuşdur. Zəngilan isə həmin şəhərin və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı idi. Lakin sözün kökündə "Pir" sözü olduğu üçün tariximizi təhrif etmək məqsədi ilə rayona 1930-cu ildə Zəngilan adı verilmişdir. İlk adı Pircavan olan bu şəhər isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır və 1967-ci ildə hazırkı Zəngilan şəhərinə şəhər statusu verilmişdir.

Zəngilanın qədim Şərifan kəndində yerləşən Şəhri-Şərifan abidəsi, Məmmədbəyli türbəsi, XIV əsr Hacallı dairəvi bürcü, Yenikənd sərdabəsi, XVII - XVIII əsrlərə aid, Səfəvilər dövründə tikilməsi güman edilən Zəngilan şəhər məscidi, xalq arasında "Qız qalası" da adlandırılan Bartaz qız qalası, muzeyləri, Koroğlu daşının hər biri tarixin minilliklərindən xəbər verir, Zəngilanın qədimliyini təsdiqləyir.



Zəngilan şəhəri 4 kilometrlik bir məsafədə Oxçu çayın sağ sahilində, Çeşməgözlü deyilən bir yerdən cənuba doğru ərazidə salınıb. Bu şəhərin özünün bir çox qədim məhəllələri vardır. Çeşməgözlü, Köhnə Pirçivan, Məscid düzü, Şaftalı dərəsi, Kirdəzir dərəsi, Bağırsaq dərə, Muncuqlu dərə, Çala dərə, Üst məhəllə... Hər biri bir tarixi yerlə, tarixi hadisə ilə bağlı məhəllələr...

### 27 illik həsrət

Sovet quruluşunun həyatımıza daxil olması ilə tariximizin təhrif olunması Zəngilanın da tale payı olmuşdur. Bu dövrün bərqərar olduğu 70 ildə rayonun ərazi vahidində dəyişiklik olmuş, Zəngilan bir neçə dəfə Qubadlının, Qubadlı Zəngilanın tərkibinə daxil edilmişdi. Bu dəyişikliyin heç biri Azərbaycanın tarixi əraziləri üçün bir mahiyyət kəsb etməsə də, imperiyanın gələcək planlarında özünəməxsus yer tutmuşdur. Elə 70 ilin sonlarında Zəngilanın da Qarabağ və digər rayonlarımız kimi işğalın qurbanı olması da illərin işğalçılıq planının həyata keçirilməsinin vaxtının çatdığının göstəricisi idi. Bu plan 1993-cü ildə baş tutmuşdu. Günahsız insanlar öz dədə-baba yurdundan zorla çıxarılmış, evləri dağıdılmış, ata-babalarının uyuduğu qəbiristanlıqlar məhv edilmişdi. Bölgənin bütün tarixi abidələri, məscidləri nankor ermənilərin qurbanlarına çevrilmişdir.

İnsan o zaman qədirbilən olur ki, onun kökü, xalqı, milləti ilə bağlı dəyərləri olur. Bu dəyərləri qorumaq isə özünün gözlərini qorumaq qədər vacib olur. Xalq yox, tayfa, millət yox azlıq, kök yox, yalançı gövdələrdən ibarət ermənilərdən, sözün həqiqi mənasında, bundan fərqli nə isə gözləmək də olmazdı. Nəticədə isə 27 il idi ki, zəngilanlılar yurd həsrəti ilə alışıb-yanırdı. 27 il idi ki, onlar yurd yerlərinin sakini yox, qonağı idilər: yuxularında Zəngilanda olmaqla, Zəngilanı xəyallarında qurmaqla... Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: "Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik".

### Bəylərin, ağaların şəhəri

Sovet dövrünün 70 ilinin başlanğıcında "bolşevik hərəkatı" liderlərinin Azərbaycan bəylərini, ağalarını düşmənə çevirib xalqa təqdim etməsinə baxmayaraq tariximizin səhifələrində bəylərin, ağaların silinməz izləri var. Onların dövrün siyasi rəhbərləri kimi fəaliyyəti, ictimai işlərdə fəallığı, məmləkətdə tikdirdiyi məktəblər, məscidlər, körpülər, saldıqları yollar və digərləri bu gün Azərbaycan tarixinin bir hissəsini təşkil edir.

Ardı Səh. 12

Əvvəli Səh 11

# ZƏNGİLAN:
## azadlığın 5 illik işığında

### İşğal tarixinə 9 gün qalmış azad edilən yurd yerimiz

Zəngilan rayonunun ərazisi də ötən əsrin əvvəllərində əsasən bəylərin çəltik zəmilərindən və onların özlərinə məxsus yaşayış evlərindən ibarət idi. Bəylərin, ağaların vaxtilə bu yurd yerinin abadlaşmasında xidmətləri danılmazdır.

**İşğal tarixinə 9 gün qalmış...**

2020-ci il oktyabr ayının 20-si bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Bu gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olunub. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır. Cənab İlham Əliyev 5 il öncə tarixə yazılan yeni şad xəbəri xalqımıza belə çatdırdı:

"İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"







**Azad Zəngilan abad Zəngilana çevrilir**

Zəngilanın işğaldan azad olunmasından artıq 5 il ötür. Onu bu gün, düz 32 il əvvəl işğal olduğu gündə də xatırlayır, tarixinə, coğrafiyasına, sosial-iqtisadi vəziyyətinə, mədəniyyətinə yenidən nəzər salırıq. Çünki bu, bizim borcumuzdur. Azad edilmiş torpaqları işğal günlərində də xatırlamaqla tariximizi yaşatmış, onu gənc nəsillərin yaddaşına həkk etmiş oluruq. Qoy bizdən sonra gələn nəsillər nankor qonşumuzun soydaşlarımıza tutduğu divanı, torpaqlarımızda həyata keçirdiyi soyqırımını yaxşı xatırlasın. Xatırlasınlar ki, bir də heç vaxt o müdhiş işğal illərinə qayıtmayaq.

Bu gün bütün azad edilmiş torpaqlarımız kimi, Zəngilan da yeni dövrə qədəm qoyub: azad yurdumuz abadlığına qovuşur, sakinlərini ağuşuna alır. Zəfərin 4-cü ilində Zəngilana nəzər salarkən, onun "ağıllı kəndi" Ağalısının üç ildir, sakinlərini qoynuna aldığını görmək çox qürurvericidir. Burada 200 evdən ibarət gözəl kənd salınıb. Kəndin davamlı genişləndirilməsi, əlavə evlərin inşa edilməsi və infrastruktur layihələrinin şaxələndirilməsi də nəzərdə tutulur.

Eyni zamanda Zəngilanda həyata keçirilən işlər-Beynəlxalq hava limanının tikilməsi, yolların salınması, şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsinin nəzərdə tutulması, Baş planın konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmalarının təşkil etməsi, məscidlərin bərpası, bütün bunların fonunda isə "Zəfər" və "İşğal" muzeylərinin yaradılması yaşanan tarixin əbədiləşdirilməsi və Zəngilanın Zəngilana qaytarılmasıdır.

Prezident İlham Əliyevin Zəngilana hər səfəri burada çoxsaylı obyektlərin təməlinin qoyulması, istifadəyə verilməsi ilə nəticələnir. Bunu ötən illərin hər biri təsdiqləyir. Böyük Qayıdış Proqramı ilə doğma yurduna qayıdan yüzlərlə insanın üzündəki sevinc, qürur hissi təsdiqləyir.

Zəngilanın digər coğrafi əhəmiyyəti ondan ibarətdir ki, buradan Naxçıvana cəmi 40 kilometrlik dəhliz uzanır. Dəhliz Naxçıvan Muxtar Respublikasının quru yolla paytaxta və ölkənin digər şəhər və rayonlarına çıxışını təmin edir. Qarşıda Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək Azərbaycanın növbəti tarixi nailiyyəti olacaqdır.

Həyata keçirilən bütün işlərin əsasında isə insan amili dayanır. O insan amili ki, dövlətimizin əsas prioritetidir.

***Mətanət Məmmədova***

# "Ata-ana sevgisi uşağın psixoloji bütövlüyünü formalaşdırır"

*SOSİOLOQ DANIŞDI*



"Yetim qalmaq taleyin ən ağır sınaqlarından biridir". Bu sözləri SİA-ya açıqlamasında İctimai xadim, şəhid ailələrinə dəstək tədbirlərinin təşkilatçısı, xeyriyyəçi, sosioloq Arzu Əliyeva deyib. Onun sözlərinə görə, bu, həm ciddi, həm də həssas bir mövzudur: "Mövzunu daha dərindən və geniş şəkildə dəyərləndirmək üçün biz yetim psixologiyasını araşdırmalıyıq. İnsanın normal mövcudluğunu və fəaliyyətini təmin edən əsas amillər onun fizioloji və psixoloji bütövlüyüdür. Psixoloji bütövlüyü müəyyən edən başlıca faktorlar - insanda özünə və başqalarına inam, emosional dayanıqlıq və intellektual səviyyədir. Bu amillərin formalaşmasında övlada ata-ana sevgisi və qayğısı əvəzolunmaz rol oynayır. Yetim uşaqlara isə bu sevgi və qayğını vermək dövlətin və cəmiyyətin üzərinə düşür.

Dövlət tərəfindən uşaq evlərinə göstərilən diqqət və qayğı danılmazdır. Bununla yanaşı, uşaq evlərinə cəmiyyətin, qeyri-hökumət təşkilatlarının və medianın nəzarəti daha da gücləndirilməlidir. Yetim uşaqlar onlara olan məhəbbət və qayğını hər zaman hiss etməlidirlər. Bu məqsədlə uşaq evlərində çalışan tərbiyəçilərin və müəllimlərin mənəvi və peşəkar keyfiyyətlərinin yüksək səviyyədə olması son dərəcə vacibdir.

Bütün dinlər insanları sevgiyə, mərhəmətə və bir-birinin dərdinə şərik olmağa çağırır. Bu həssaslıq və şəfqət hissi, xüsusilə yetim uşaqlara qarşı münasibətdə çox önəmlidir. Yalnız bu yolla yetim uşaqlarda sağlam fizioloji və psixoloji amilləri formalaşdırmaq, onların cəmiyyətə normal inteqrasiyasını təmin etmək mümkündür".

***Günel Fərzəliyeva***

# Zəli ilə müalicə: təbiətin canlandırıcı gücü

***İnsan sağlamlığını qoruma yolları tarix boyu müxtəlif olmuşdur - bitkilər, daşlar, su, hətta heyvanlar belə tibbin ayrılmaz hissəsi kimi istifadə edilmişdir. Onlardan biri də əsrlərdir möcüzəvi təsiri ilə tanınan zəli ilə müalicə üsuludur. Zəli qədim Misirdən, Hindistandan və Orta Asiyadan bu yana "canlı dərman" adlandırılıb. Əgər qədim həkimlər onun qan sorma qabiliyyətinə görə orqanizmi "təmizlədiyini" düşünürdülərsə, müasir elm bu prosesin biokimyəvi əsaslarını sübut edib. Bu gün hirudoterapiya dünyanın bir çox ölkəsində - xüsusilə Rusiya, Almaniya, Hindistan və Türkiyədə - rəsmi tibbi metod kimi qəbul olunur. O, həm xalq təbabətinin mirası, həm də müasir fiziologiyanın elmi nailiyyəti sayılır.***



## Hirudoterapiyanın elmi əsası

Tibbi zəlilər - Hirudo medicinalis - xüsusi şəraitdə yetişdirilən, steril və zərərsiz orqanizmlərdir. Onların ağız vəzilərindən ifraz olunan bioloji aktiv maddələr insan orqanizmi üçün çoxsaylı müalicəvi təsirə malikdir. Ən vacib maddələr bunlardır:





Hirudin - qanın laxtalanmasının qarşısını alır (antikoaqulyant təsir);
Bdellin və eglin - iltihabəleyhinə fermentlər;
Hyaluronidaza - toxumaların keçiriciliyini artırır, qan dövranını yaxşılaşdırır;
Destabilaza - mikrotrombları parçalayır, qan axınını normallaşdırır;
Apiraza - hüceyrə bərpasını sürətləndirir, immuniteti stimullaşdırır.
Bu maddələrin təsiri nəticəsində orqanizmdə qan dövranı tənzimlənir, ödem azalır, toxumalarda oksigen mübadiləsi bərpa olunur.



## Tibbdə tətbiq sahələri

Zəli ilə müalicə çoxsaylı xəstəliklərdə istifadə olunur. Onun əsas təsiri qan dövranının normallaşması, iltihabın azalması və immun sisteminin aktivləşməsi ilə bağlıdır. Ən geniş tətbiq sahələri:
**Ürək-damar sistemi:** hipertoniya, varikoz, tromboflebit, infarkt sonrası vəziyyətlər;
**Nevroloji xəstəliklər:** baş ağrıları, sinir sıxılmaları, beyin qan dövranı pozğunluqları;
**Qadın xəstəlikləri:** sonsuzluq, endometrioz, iltihabi proseslər;
**Dəri və kosmetologiya:** akne, yara izləri, dəri qan dövranı pozğunluqları;
**Oynaqlar və revmatizm:** artrit, artroz, bel ağrıları;
**Oftalmologiya:** görmə sinirinin qidalanma pozğunluqları.
Maraqlıdır ki, bəzi ölkələrdə zəli cərrahiyyə sonrası orqan transplantasiyasında da istifadə olunur - çünki o, qan dövranının bərpasını sürətləndirir və toxumaların nekroz riskini azaldır.

## Zəlinin orqanizmə təsir mexanizmi

Zəli bədənə yapışdıqda əvvəlcə dərini deşir, sonra mikro miqdarda qan sorur. Bu zaman orqanizm iki istiqamətdə cavab verir:
1. Mexaniki təsir: qan azaldığı üçün bədəndə təzyiq və durğunluq azalır.
2. Biokimyəvi təsir: zəlinin tüpürcəyindəki fermentlər qanın tərkibinə qarışaraq laxtalanmanı azaldır, iltihabı zəiflədir və hüceyrə bərpasını stimullaşdırır. Beləcə, zəli yalnız "qan alıcı" deyil - o, orqanizmi təbii şəkildə yeniləyən bioloji laboratoriyadır.

## Tarixi baxış

Zəli ilə müalicə üsulu qədim Misir mətnlərində (e.ə. 1500) qeyd olunur. Orta əsrlərdə Avropada "qan azaldılması" terapiyası üçün zəlilər milyonlarla istifadə olunurdu. XIX əsrin əvvəllərində Fransada hər il 100 milyon zəli tibbdə işlədilirdi! Lakin XX əsrdə antibiotiklər və süni dərmanların yayılması bu üsulu arxa plana keçirdi. Yalnız 1980-ci illərdən sonra elmi tədqiqatlar zəlilərin tərkibindəki maddələrin tibbi əhəmiyyətini sübut etdi və hirudoterapiya yenidən dirçəldi.

## Etik və tibbi qaydalar

Müasir dövrdə hirudoterapiya yalnız tibbi nəzarət altında və steril laboratoriyada yetişdirilmiş zəlilərlə aparılır. Təbii göllərdən və ya təsadüfi yerlərdən götürülmüş zəlilər infeksiya riski daşıya bilər. Müalicədən sonra zəlilər təkrar istifadə olunmur - bu, həm gigiyena, həm də etik qaydalara əsaslanır. Hər pasiyent üçün fərdi miqdarda və müəyyən nöqtələrdə tətbiq olunur. Əks göstərişlərə aşağıdakılar daxildir: Anemiya (qan azlığı), hemofiliya və digər qan laxtalanma pozğunluqları, aşağı təzyiq, hamiləlik, allergiya halları.

## Dünya praktikasına nəzər yetirdikdə isə...

Müasir tibb zəlini "köhnə üsul" kimi yox, biotexnoloji vasitə kimi qəbul edir. Alman alim Karl Markwardt 1950-ci illərdə hirudinin kimyəvi strukturunu müəyyən edərək bu sahəyə yeni elmi əsas qoydu. Rusiya Elmlər Akademiyası, Almaniyanın "Leech Therapy Institute" və Hindistanın "Ayurveda Medical Research Council" tərəfindən aparılan araşdırmalar göstərib ki: "Zəlinin sekresiyasında 100-dən artıq bioloji aktiv maddə vardır və onların 40%-dən çoxu sintetik yolla hələ alınmayıb".

## Zəli terapiyasının gələcəyi

Bu gün hirudoterapiya bir çox tibb mərkəzlərində əlavə və dəstəkləyici müalicə kimi istifadə olunur. Bəzi biotexnoloji şirkətlər zəlidən alınan fermentləri gel, krem və inyeksiya formasında hazırlayır.
Elm adamları artıq "zəli nanodərmanları" üzərində işləyir - bu texnologiya sayəsində fermentlər birbaşa xəstə hüceyrələrə göndərilə bilər. Beləliklə, gələcəkdə hirudoterapiya təkcə alternativ təbabət yox, dərin elmi əsaslı müalicə sistemi olacaq.

***Günel Fərzəliyeva***

ARAŞDIRMA

# Aİ-dən Mərkəzi Asiya banklarına zərbə

*Qırğızıstan Aİ-nin Rusiyaya görə tətbiq etdiyi sanksiyalardan təəssüflənir*

Noyabrın 12-dən qüvvəyə minən Avropa İttifaqının Mərkəzi Asiya maliyyə qurumlarına qarşı sanksiyalar tətbiq etmək qərarları region üçün ciddi nəticələrə səbəb ola bilər. Aİ Şurasının məlumatına görə, Avropanın sanksiyalarından yayınarkən tutulan Tacikistan, Qırğızıstan və Qazaxıstan da daxil olmaqla 12 bank və şirkət hədəfə alınacaq. Buna cavab olaraq Qırğızıstan ittihamlarla qətiyyən razılaşmır və Aİ-nin qərarına etiraz etmək niyyətində olduğunu bəyan edərək, banklarının fəaliyyətinə müstəqil şəkildə yenidən baxılmasını tələb edir.Aİ-nin yeni məhdudiyyətləri təkcə Rusiya iqtisadiyyatının əsas sektorlarına təsir göstərməyib, həm də Qazaxıstan, Qırğızıstan və Tacikistanın maliyyə institutlarına ciddi ziyan vurub. Ekspertlər qeyd edirlər ki, Aİ-nin bu hərəkətləri strateji dəyişiklikdən xəbər verir: sanksiyalar indi Rusiyaya birbaşa təzyiqdən kənara çıxır. Onlar Mərkəzi Asiya ölkələrinə və onların banklarına təsir alətinə çevrilirlər. Rəsmi Brüssel siqnal göndərir: Qərbin sanksiyalarının təsirini yumşaltmaqda Moskvaya kömək edən istənilən ölkə özü də təzyiqə məruz qala bilər.Nəhayət, Qazaxıstan, Qırğızıstan və Tacikistandakı maliyyə institutları üçün nəticələr Avropa qurumları və fiziki şəxsləri ilə hər hansı əməliyyatların aparılmasına tam qadağadır.

Bu, onların beynəlxalq ödəniş sistemlərinə çıxışını məhdudlaşdıra və müxbir münasibətlərini çətinləşdirə bilər, baxmayaraq ki, onların daxili bazarda və qeyri-Avropa tərəfdaşları ilə əməliyyatları digər, maneəsiz maliyyə alətləri və kanallarından istifadəni davam etdirəcək. Yeni sanksiyalar rəqəmsal valyutalara xüsusi diqqət yetirir. Aİ Rusiya ilə ödənişləri asanlaşdırmaq üçün istifadə edilən rublla ifadə olunan stabilkoin olan A7A5 ilə əməliyyatları tamamilə qadağan edib. Onun tərtibçisi Old Vector artıq ABŞ və Böyük Britaniya sanksiyaları altında idi. İndi, AB qadağası ilə bu texnologiya, çox güman ki, bütün dünyada istifadəçilər üçün həmişəlik bloklanacaq. Bu, milyardlarla dolları asanlaşdırdı, lakin Aİ indi bu texnologiyanı hər kəs üçün daimi olaraq bloklamağa çalışır.Qırğızıstan Xarici İşlər Nazirliyi Qırğızıstan şirkətlərinin Aİ-nin sanksiyalar siyahısına daxil edilməsindən təəssüflƏndiyini bildirib.













Nazirlik vurğulayır ki, Qırğızıstan beynəlxalq öhdəliklərini yerinə yetirir və sanksiyalardan yayınmanın qarşısını almaq üçün Avropa İttifaqı ilə açıq dialoq aparır.Xarici İşlər Nazirliyinin bəyanatında ölkənin Aİ ilə bərabərhüquqlu tərəfdaşlığı dəstəklədiyi vurğulanır və bunun birtərəfli sanksiya təzyiqindən daha çox qarşılıqlı faydalı məqsədlərə aparan daha təsirli yol olduğuna inanır. Bununla əlaqədar Qırğız Respublikası Aİ-yə tətbiq edilən sanksiyaların əsasını yoxlamaq üçün müstəqil beynəlxalq audit keçirməyi təklif edir. O, həmçinin məlumat mübadiləsi, əməliyyatların monitorinqi və risklərin qiymətləndirilməsi üçün birgə işçi qrupunun yaradılmasını təklif edir.Qırğızıstan bankları əvvəllər Aİ və Böyük Britaniyanın sanksiyalarına məruz qalıb. "Kabar" xəbər agentliyinə müsahibəsində Londonun qərarını şərh edən prezident Sadır Japarov bəyan edib ki, Qırğızıstan banklarına qarşı sanksiyalar siyasi motivlidir və onların Rusiyaya qarşı qoyulan məhdudiyyətlərdən yayınmada iştirakına dair inandırıcı sübutlarla dəstəklənmir. Dövlət başçısının sözlərinə görə, sanksiyaların tətbiqindən sonra Baş nazirin birinci müavini Daniyar Amangəldiyev ABŞ səfiri Lesli Viqeri ilə görüşüb, bankların fəaliyyətini yoxlamaq üçün müstəqil audit şirkətlərini cəlb etməyi təklif edib. Lakin prezident qeyd edib ki, səfir bundan imtina edib.Tacikistan Milli Bankı bəyan edib ki, maliyyə institutlarının və beynəlxalq tərəfdaşlarla birgə vəziyyəti araşdırır və mümkün nəticələrin qarşısını almaq üçün tədbirlər görür. "Hazırda Tacikistan Respublikasında müştərilər üçün bank xidmətləri mövcuddur və adi qaydada təqdim olunur", - tənzimləyicinin bəyanatında deyilir.

Milli Bank vurğulayıb ki, bütün ölkədaxili əməliyyatlar - köçürmələr, hesab və karta xidmət, bankomatlar və mobil proqramlar fasiləsiz işləyir. Potensial dəyişikliklər yalnız əlavə yoxlamaların tətbiq olunacağı müəyyən sahələrdə beynəlxalq köçürmələrə təsir göstərə bilər.Qazaxıstanın maliyyə naziri Yerulan Jamaubayevin sözlərinə görə, Aİ-nin Qazaxıstan VTB-yə qarşı sanksiyaları ölkə iqtisadiyyatına ciddi təsir göstərməyəcək, çünki bank praktiki olaraq Qazaxıstan sisteminin bir hissəsi deyil. "VTB praktiki olaraq mövcud deyil. Bank müflis olsa belə, bizdə əmanətlərə zəmanət sistemi var", - Jamaubayev qeyd edib. O əlavə edib ki, ölkənin bank sistemi stabil olaraq qalır və əsas oyunçuların fəaliyyəti Respublika Mərkəzi Bankının nəzarəti altındadır və həmişəki kimi davam edir.IMEMO RAS-ın Mərkəzi Asiya sektorunun rəhbəri Stanislav Pritçin hesab edir ki, Avropa İttifaqı Rusiya Federasiyası ilə ticarətə xidmət göstərən banklara qarşı sanksiyaları sistemli şəkildə müəyyənləşdirir və seçici şəkildə tətbiq edir. Bu, Aİ-nin Rusiya iqtisadi əlaqələrini dəstəkləyən təchizat zəncirlərində zəifliklərin müəyyən edilməsi strategiyasını nümayiş etdirir. "Qırğızıstanın mövqeyi xüsusilə maraqlıdır. Əsas oyunçu olmamasına baxmayaraq, o, Rusiya ilə ticarət hüququnu müdafiə etmək əzmini nümayiş etdirir. Hazırkı vəziyyətdə Mərkəzi Asiya ölkələri dilemma qarşısındadır: ya Aİ-nin sanksiyalar strategiyasını qəbul edin, Rusiya ilə əməkdaşlığın məhdudlaşdırılmasının iqtisadi xərclərini qəbul edin, ya da alternativlər axtarın", - Pritçin qeyd edib.

Onun fikrincə, Qırğızıstan ikinci variantı seçir, xarici ticarət əlaqələrini qoruyub saxlamaqla uyğunlaşma axtarır. Bu, obrazlı desək, Rusiya ilə hesablaşmaların aparılması üçün ayrıca maliyyə institutlarının yaradılmasını nəzərdə tutur. Rusiya (onun əsas iqtisadi tərəfdaşı və investoru) ilə ticarəti və qarşılıqlı əlaqəni tamamilə dayandırmağın qeyri-mümkünlüyünü izah etməyə yönəlmiş Qərb tərəfdaşları ilə siyasi dialoq cəhdləri səmərəsizdir. Bu kontekstdə Bişkek daha ardıcıl yanaşma nümayiş etdirir, digər region ölkələri isə indiyədək güzəştə getmək istəyən daha çevik mövqeyə üstünlük veriblər.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici media mənbələrinə istinadlar var.***

# Çin dolların qlobal hökmranlığına son qoymağa çalışır: Yuan necə bərkidi?



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*





***Son illərdə dünyanın iqtisadi və maliyyə sistemində mübarizə daha da qızışıb. Qlobal iqtisadiyyatda payını durmadan artıran, dünyanın 1-ci iqtisadiyyatına çevrilən, az qala bütün sahələrdə dünya bazarlarını ələ keçirən Çin maliyyə sistemində də dünyanın əsas mərkəzinə çevrilməyi hədəf qoyub.***

Pekin qlobal səhnədə yuanın təşviqində daha da fəallaşıb. İndi borclularına dollar kreditlərini yuanla ifadə olunmuş kreditlərə çevirmək imkanı təklif edir. Keniya artıq buna razılıq verib və bir neçə yüz milyon dollar qənaət edəcək. Çin istiqrazları daha populyarlaşıb. Hər yeni müqavilə beynəlxalq dövriyyədə yuanın həcmini və çəkisini artırır.

Çin borclu ölkələrə dollar kreditlərinin bir hissəsini Çin valyutası ilə ifadə olunmuş kreditlərə çevirmək imkanı təklif edir. Bunun müqabilində borcalanlara daha aşağı faiz dərəcələri verilir.

Məsələn, Keniya artıq dəmir yolu kreditlərini yuana çevirməyə razılıq verib və borc həcmində ildə 215 milyon dollar qənaət edəcək. Efiopiya Çinə olan 5,38 milyard dollarlıq borcunun bir hissəsini yuan kreditlərinə çevirməyi müzakirə edir.

Çinin Afrikadakı ən böyük borclularından biri olan Zambiya da dollar kreditlərindən yuana keçməyi düşünür.

Con Hopkins Universitetinin Çin-Afrika Tədqiqatları mərkəzinin eksperti Yufana Huangın sözlərinə görə, Laos, Cibuti, Konqo, Mozambik və Seneqal da "Keniya modeli"nə keçə bilər. "Çinin dollar kreditlərini yuana çevirmək strategiyası yeni deyil; əksinə, bu, ardıcıl, uzunmüddətli siyasətdir. Yuanın genişlənməsi ümumiyyətlə 2000-ci illərin sonlarında başlayıb. 2016-cı ildə BVF yuanı Xüsusi Borc Hüquqları səbətinə daxil edərək ona sərbəst istifadə edilə bilən valyuta statusu verib. Eyni zamanda, Çin bank şəbəkəsini və CIPS beynəlxalq ödəniş sistemini qurub və genişləndirməyə davam edir".

Rusiya İqtisadiyyat Universitetinin Davamlı İnkişaf Maliyyəsi kafedrasının professoru Mixail Qordienko "Vzqlyad" qəzetinə bu siyasətin mahiyyətini izah edib: "Maliyyə infrastrukturunun istifadəçilərlə doldurulması lazım olduğu aydındır və buna digər ölkələrə borcların restrukturizasiyası yolu ilə nail olmaq olar. Bu, hər iki tərəf üçün faydalıdır. Borcalan kredit şərtlərini öz xeyrinə tənzimləməklə defolt riskini azaldır, kreditor isə öz valyutasına tələbat yaradır və maliyyə institutlarını tələbatda saxlayır".





"Freedom Finance Global" şirkətinin Maliyyə Təhlili direktoru Erlan Abdikərimov isə bunu belə izah edir: "ABŞ baza dərəcəsini artırmaqla inflyasiya ilə mübarizə apararkən, Çin deflyasiya meylləri fonunda aşağı faiz dərəcələrini qoruyub saxladı. Buna görə də, borc alan ölkələr Çindən dollarla müqayisədə daha aşağı faiz dərəcələri alırlar. Bundan əlavə, inkişaf etməkdə olan bazarlar daha proqnozlaşdırıla bilən maliyyələşdirmə mənbəyinə çıxış əldə edir və borclarını daha çevik şəkildə yenidən strukturlaşdırmaq imkanı əldə edirlər".

Çin artıq ondan borc alan ölkələrin böyük bir dairəsini formalaşdırıb və indi hamısı yuanla ifadə olunmuş borclarının yenidən strukturlaşdırılmasından faydalanır. Dünya Bankının təsnifatına görə, kasıb ölkələrin 78-i Çinə təxminən 67 milyard dollar borcludur. Bu kreditlər daha aşağı faiz dərəcələri ilə yuana çevrilərsə, bu ölkələrə çox ehtiyac duyulan maliyyə məkanı verəcək, Çin isə heç nə itirməyəcək. Əksinə, yuanın qlobal miqyasda payı yalnız artacaq.

Çinin yuanın qlobal miqyasda istifadəsini təşviq etmək üçün istifadə etdiyi digər bir vasitə dollar istiqrazlarının buraxılışlarının yuana çevrilməsi və Çin Xalq Bankının svop xətlərinin genişləndirilməsidir.

Bu il Macarıstan və Qazaxıstan ilk dəfə olaraq yuan istiqrazları buraxıblar. Şri-Lanka avtomobil yollarının tikintisi üçün 500 milyon yuan kredit alıb. İndoneziya ilk dəniz yuan istiqraz buraxılışını hazırlayır. 2025-ci ilin oktyabr ayına qədər hökumətlər, dövlətə məxsus banklar və beynəlxalq təşkilatlar kreditlər və istiqrazlar vasitəsilə 2024-cü ildəkindən 2 dəfə çox yuan və ya təxminən 68 milyard yuan (9,5 milyard dollar) cəlb etmişdilər. Çin Xalq Bankının da təxminən 30 ölkə ilə valyuta mübadiləsi var. Bu alət dollar olmadan yuanla hesablaşmalara imkan verir.

Çinin məqsədi yuanın qlobal səhnədəki rolunu dollara qarşı gücləndirmək və onu 1 nömrəli valyutaya çevirməkdir. Buna görə də Pekin ABŞ hökumətinin borclarındakı payını yüz milyardlarla dollar azaltmış və eyni zamanda öz paylarını təşviq etmişdir.

Çini borc bazarında ABŞ səviyyələrinə yaxınlaşdıra biləcək şərtlərə yuanın tam konvertasiya olunması və kapital nəzarətinin aradan qaldırılması, hüquqi islahatlar, daha güclü tənzimləyici müstəqillik, həmçinin özəl və xarici iştirakçılar üçün şəffaf rəqabət mühitinin yaradılması daxildir.

Lakin Çin hələ də ciddi kapital nəzarətini saxlayır və yuanın məzənnəsi Çin Xalq Bankı tərəfindən idarə olunur. Bu, onun sərbəst dövriyyəsini məhdudlaşdırır və valyutanı beynəlxalq investorlar, xüsusən də uzunmüddətli istiqraz investisiyaları üçün daha az cəlbedici edir.

Doğrudur, dolların yerini almaq yuan üçün hələlik çətin bir vəzifə olaraq qalır. Lakin Çin aktiv şəkildə yuanın hesablaşmalarda və kreditləşmədə mövqeyini gücləndirdiyi, "yuan zonası" təsirini yaratdığı çoxvalyutalı sistem yaratmağa çalışır, lakin hələlik vahid qlobal ehtiyat valyutası olmağa can atmır".

Beynəlxalq Hesablaşmalar Bankının məlumatına görə, qlobal yuan dövriyyəsi gündə 817 milyard dollara qədər artaraq Britaniya funt sterlinqinə yaxınlaşıb. Çin valyutasının qlobal valyuta əməliyyatlarındakı payı 2022-ci ildəki 7%-ə qarşı 8,5%-ə çatıb. Müqayisə üçün, funt sterlinq 12,9%-dən 10,2%-ə düşüb. Beləliklə, yuan ticarət həcminə görə dünyada 5-ci ən böyük valyuta kimi özünü möhkəm şəkildə təsdiqləyib və funt sterlinqlə olan fərqi azaldır.

Hər yeni yuan hesablaşma müqaviləsi və buraxılan hər bir istiqraz beynəlxalq dövriyyədə Çin valyutasının həcmini artırır. Bu, yuanın statusunu artırır. Daha əlverişli şərtlər təklif etmək Çinə borclu ölkə üzərində iqtisadi təsir göstərməyə və qarşılıqlı əlaqənin bütün şərtlərini nəzərə alaraq onunla qarşılıqlı faydalı əməkdaşlıq qurmağa imkan verir.

Svop xətlərinə gəldikdə isə, ekspertlər hesab edirlər ki, onlar açıq bazarda valyuta almağa ehtiyac olmadan yuana çıxış imkanı verir. Məsələn, Çin Xalq Bankı ilə Avropa Mərkəzi Bankı arasında da oxşar müqavilələr imzalanıb və bu müqavilələr 2025-ci ildə 350 milyard yuan və 45 milyard avro məbləğində vəsait ayrılmasını nəzərdə tutur. Bu təcrübə yuanın beynəlmiləlləşməsinə birbaşa töhfə verir, beynəlxalq hesablaşmalarda istifadəsi üçün əlavə rəsmi kanal yaradır və valyutaya etimadı gücləndirir.

Ümumiyyətlə, qlobal maliyyə sistemində valyutaların etibarlılığını təmin edən əsas amil onun arxasında dayanan iqtisadiyyatdır. Çin iqtisadiyyatının davamlı böyüməsi və dünya bazarlarında Çin məhsullarının payının artması yuanın nüfunu və etibarlılığını çoxaldır. Yaxın 10-15 ildə yuanın əsas dünya valyutasına çevriləcəyi şübhə doğurmur.

Azərbaycanın strateji valyuta ehtiyatlarında yuanın payı artır. Dövlət Neft Fondunun ümumi portfeli 70 milyard ABŞ dolları təşkil edir. Bunun 11, 4 milyardı yuanda, 11,9 milyardı avroda, 47,5 milyardı dollarda saxlanır. Qalan hissə isə digər valyutalara və qızıla yönəldilib. Göründüyü kimi, bizim ehtiyatlarda da yuan demək olar ki 2-ci mövqeyə çıxıb, avro ilə təxminən eynidir. Çinlə iqtsiadi əməkdaşlığımız və ticarətimiz artan xətlə getdiyinə görə, yuanın bizim üçün əhəmiyyəti də artracaq.

**Elçin Bayramlı**

# Televiziya proqramları sosial mühitə hansı təsir göstərir?

*Sosioloq mühüm məqamlara aydınlıq gətirdi*



"Sosial davranışlar dedikdə, cəmiyyət daxilində fərdlərin bir-biri ilə münasibət və əlaqə qurarkən sərgilədiyi hərəkətlər, davranışlar başa düşülür". Bunu SİA-ya açıqlamasında sosioloq Ağasəlim Həsənov deyib. Onun sözlərinə görə, bu davranışlar ümumiyyətlə fərdin sosial mühitə uyğunlaşmasını təmin edir: "Eyni zamanda, fərdin hal-hazırda cəmiyyətdə oturuşmuş mövcud sosial norma və qaydalara əməl etmə məsuliyyətini formalaşdırır. Bir növ sosial davranışlar cəmiyyətdə daha əvvəl formalaşmış sosial faktlara əsaslanır. Yəni cəmiyyətdə qanun qaydaları necədir, əxlaq kodeksi, dini və əxlaqi yasaqlar nədən ibarətdir - bütün bunları nəzərə alan davranış formalarını sosial davranış adlandıra bilərik.

Sosial davranışlar bir qayda olaraq ətraf mühitdən təsirlənir. Yeni cəmiyyətin sosial mühiti, oradakı tendensiyalar, hətta ideologiyalar və informasiya texnologiyalarının yaratdığı təsirlər - bütün bunlar kompleks şəkildə cəmiyyətdə ümumi sosial davranışın formalaşmasına öz təsirini göstərir. Ümumiyyətlə, sosial davranışlar iki növə ayrılır: müsbət və mənfi. Müsbət sosial davranışlara yardımlaşma, paylaşmaq, digərinə dəstək olmaq, yeni situasiyaya uyğun davranış göstərmək misal ola bilər. Mənfi sosial davranışlara isə aqressivlik, radikallıq, kobud rəftar aid edilə bilər.

Bu günkü gün televizya proqramlarını sosial davranışlar kontekstində qiymətləndirdikdə, nəticə mənalı şəkildə ortaya çıxır. Nə qədər yeni sosial platformalar günümüzün reallığına çevrilmiş olsa da, insanlar sosial şəbəkələr üzərindən aktiv fəaliyyət göstərsələr də, televiziyalar və televiziya proqramları cəmiyyətin sosial mühitinə böyük təsir göstərir. Əgər televiziya proqramları öz məzmunu etibarilə milli-mənəvi dəyərlərə, əxlaqi prinsiplərə, ümumilikdə ictimai nizama, şəxsiyyətin sosiallaşmasına və mədəni mühitin inkişafına töhfə verirsə, bu cür proqramlar sosial davranışlara müsbət təsir göstərəcəkdir. Əksinə, əgər televiziya proqramları şou, əyləncə, bayağı, mənasız və heç bir mənəvi yük daşımayan proqramlarla zənginləşəcəksə, o zaman bu verilişlər cəmiyyətdə fərdin sosiallaşmasına, mədəni səviyyənin aşağı düşməsinə, cəmiyyət daxilində nizamın pozulmasına, hətta radikallığın və kobud davranışların artmasına neqativ təsir göstərəcəkdir.

Fikirlərimizi yekunlaşdıraraq deyə bilərik ki, televiziyada yayımlanan proqramların ümumi cəmiyyətin sosial mühitinə çox böyük təsiri vardır. Bu təsir iki formada ola bilər: müsbət və mənfi. Bunun üçün televiziya proqramları öz fəaliyyətində yalnız kommersiya maraqlarını əsas götürməməlidir. Sosial-mədəni formatlı verilişlərin yayılması və bu cür verilişlərin çoxalması ümumi cəmiyyətdə müsbət auraya, mühitə təsir göstərir və konkret sosial davranışlara öz töhfəsini verir".

***Günel Fərzəliyeva***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Həyatınızı 3-5 saniyə irəli düşmək istəyinə qurban verməyin!



İşıqforun qırmızı işığında gözləməli idi, ancaq dayanmadı və qəzanın baş verməsinə səbəb oldu. Müşahidələr onu deməyə əsas verir ki, bu cür yol-nəqliyyat hadisələrinin baş verməsinin əsas səbəbi bəzi sürücülərin qaydalardan məlumatlı olmasına baxmayaraq, qəsdən işıqforun qırmızı işığından keçməsi ilə bağlıdır. Yəni sürücülər "Yol hərəkəti haqqında" Qanunun 59-cu maddəsinin III hissəsində yer alan "qırmızı rəngli işığın yanması və ya yanıb-sönməsi-bu siqnal hərəkəti qadağan edir" tələbinin mahiyyətini dərk etsələr də, onların, sadəcə, bir neçə saniyə irəli düşmək istəyi qəzaların qeydə alınmasına gətirib çıxarır. SİA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin yaydığı məlumatda bildirilib.

Bildirilib ki, qanunun tələblərinə riayət edərək yollarda hərəkət etmək, işıqforun və nizamlayıcının siqnallarını yerinə yetirərək yola davam etmək yol hərəkəti iştirakçıları üçün məcburidir və bu, ən təhlükəsiz, rahat variantdır.

# Azərbaycanda 4 günlük iş rejimi tətbiq olunur?



"4 günlük iş rejimi dünyanın bir çox ölkələrində tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev bildirib. Onun sözlərinə görə, Beynəlxalq Əmək Təşkilatı da ölkələrə 4 günlük iş rejiminə keçməyi tövsiyyə edir: "Ölkəmiz də Beynəlxalq Əmək Təşkilatının üzvüdür və onun tövsiyyə etdiyi bir çox istiqamətdə addımlar atır. 4 günlük iş rejiminə keçid ölkəmizdə də müzakirə olunur. Düşünmürəm ki, 4 günlük iş rejimi bütün sahələrdə tətbiq olunacaq. Bununla bağlı Əmək Məcəlləsində dəyişikliklərə ehtiyac var.

4 günlük iş rejimi ilə yanaşı saathesabı iş rejiminə keçidlə bağlı da müzakirələr gedir. Burada artıq minimum əmək haqqı anlayışı yox, saatlıq minimum əmək haqqı anlayışı gündəmə gəlir. Bir çox müəssisələrdə işçilərin istismarı halları da var. Belə hallarla bağlı Dövlət Əmək Müfəttişliyi müəssisələrdə mütamadi yoxlamalar keçirməlidir. Bu yoxlamalar kampaniya xarakterli olmamalıdır. İşçilərin hüquqlarının qorunması istiqamətində real addımlar atılmalıdır. İşçilərin hüquqlarının qorunması ilə bağlı Həmkarlar İttifaqı Təşkilatı da var. Yaxşı olardı ki, Həmkarlar İttifaqı təşkilatı da öz funksiyasını yerinə yetirsin. Həmkarlar İttifaqı təşkilatı yeni çağırışlara uyğun öz işini qurmalıdır. Dövlət qurumları öz işini görsələr əmək bazarında belə hallar olmaz. 4 günlük iş rejiminə isə keçid təbii ki, mümkündür. Yəni ölkəmizin 4 günlük iş rejiminə keçməsi üçün heç bir maneə yoxdur".

***İlkin Məmmədkərimov***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**